QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 118 (5838) **4 iyul** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Qaçqın və məcburi köçkünlər dövlətə arxalanırlar

*İlham Əliyev: "O gün gələcək, mən buna inanıram, şübhə etmirəm. Əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir"*



Səh 3

"Azərbaycanda böyük inkişaf prosesləri gedir"



2

Heydər Əliyev Fondunun Xəzərin sahilində təşkil etdiyi şənlik uşaqlara unudulmaz bir gün yaşatdı



5

Dövlətin təhlükəsizliyi və milli maraqlar hər şeydən üstün olmalıdır



4

YAP-da Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyası böyük ruh yüksəkliyi ilə davam edir

4

Azərbaycan KİV rəhbərlərinin Moskva şəhərinə səfəri davam edir



6

Əli Kərimli terrorçudan "qəhrəman" düzəldənlər sırasında



8

8 Milli Məclis: "Bəzi KİV-lərdə yanlış xəbərlər yayılıb"



9 Sosial şəbəkələrdə Paşinyanın NATO-nun baş katibinə saxta məktubu yayılıb



10 Rusiya səfiri ermənilərin cavabını verdi: "Yaxşı eləmişəm!"



# "Azərbaycanda böyük inkişaf prosesləri gedir"

## *Prezident İlham Əliyev "Baker Hughes, a GE company" şirkətinin rəhbərini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də "Baker Hughes, a GE company" şirkətinin sədri, prezidenti və Baş icraçı direktoru Lorenzo Simonellini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qəbula görə minnətdarlığını bildirən Lorenzo Simonelli Prezident İlham Əliyevlə görüşdən məmnun olduğunu vurğuladı. O, Azərbaycanda böyük inkişaf proseslərinin şahidi olduğunu dedi və ölkəmizdə neft və qaz sənayesi, turizm, idman və digər sahələrdə əldə olunan nailiyyətlərin önəmini qeyd etdi. Lorenzo Simonelli Azərbaycanda 1840-cı illərdə sənaye üsulu ilə ilk neft quyusunun qazıldığını vurğulayaraq təmsil etdiyi şirkətin Azərbaycanın neft və qaz sənayesinin inkişafına töhfə vermәsindən məmnunluq hissi keçirdiklərini dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı "Baker Hughes, a GE company" şirkətinin Azərbaycanla neftayırma və digər sahələrdə əməkdaşlığının uğurlu nəticələrinin ölkəmizin enerji sektorunun modernləşməsinə töhfə verməsini yüksək qiymətləndirdi. Azərbaycanda əldə olunan nailiyyətlərə toxunan Prezident İlham Əliyev ölkəmizin enerji, sənaye və digər sahələrdə böyük inkişaf əldə etməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Lorenzo Simonellinin Azərbaycana səfərinin səmərəli keçəcəyinə əminliyini bildirdi. Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Şimon Samuels: Azərbaycan dini və tarixi mədəni abidələrin qorunmasına həssaslıqla yanaşır



Etnik və dini tolerantlıq Azərbaycanda dövlət səviyyəsində təbliğ edilir və ölkənizdə müxtəlif xalqlara məxsus dini və tarixi mədəni abidələrin qorunmasına həssaslıqla yanaşılır. Bu sözləri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak edən ABŞ-ın Los-Anceles şəhərindəki Simon Vizental adına Mərkəzin şöbə müdiri Şimon Samuels deyib.

Bildirib ki, təmsil etdiyi mərkəz yəhudi tarixi mədəni irsinin qorunması və təbliği ilə məşğul olur. Qeyd edib ki, Qubada dağ yəhudilərinin yığcam yaşadıqları Qırmızı qəsəbədə uzun illərdir yəhudilərlə azərbaycanlılar birlikdə, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. İstərdim ki, Qırmızı qəsəbə də UNESKO-nun Dünya İrs Siyahısına salınsın. Qonaq, həmçinin deyib ki, Azərbaycanın multikultural sahədə təcrübəsini digər dövlətlər də öyrənməlidir. Belə mədəniyyət tədbirləri ölkələrə bir-birinin tarixi, mədəniyyəti ilə yaxından tanış olmaq imkanı yaradır.

"Biz tədbirin yüksək səviyyədə təşkilini gözləyirdik. Çünki Bakıda ötən il keçirilən Beynəlxalq Humanitar Forumda da mən bunun şahidi olmuşam. Bütün bunlar ölkənizin belə beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün böyük təcrübəyə malik olduğuna və insanlarınızın qonaqpərvərliyinə dəlalət edir", - deyə Şimon Samuels söyləyib.

## Maltanın nümayəndəsi: Azərbaycan son 20 ildə sürətli inkişaf yolu keçib



Paytaxtınızda 20 il bundan əvvəl olmuşam. Ötən bu müddət ərzində Azərbaycanda şahidi olduğum bu inkişaf və quruculuq prosesləri məni heyran edir. Bu fikri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak edən Maltanın UNESKO üzrə Milli Komissiyasının sədri Raymond Bondin deyib. UNESKO-nun sessiyasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə edən qonaq bunu Azərbaycana verilən əhəmiyyətin bariz nümunəsi kimi dəyərləndirib: "Dövlətiniz tərəfindən milli mədəni irs abidələrinin mühafizəsinə xüsusi diqqət yetirilir. Buna misal olaraq İçərişəhər, Qız qalası, Şirvanşahlar Saray Komplekslərində aparılan bərpa işlərini qeyd etmək olar".

## Azərbaycan Prezidenti milli bayram münasibətilə ABŞ Prezidentini təbrik edib



Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Prezident Donald Trampa təbrik məktubu göndərib. AZƏRTAC xəbər verir ki, məktubda Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarının dostluq və əməkdaşlıq münasibətlərinin birləşdirdiyi bildirilib. Vurğulanıb ki, qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır.

"Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik. Təşəbbüsçüsü olduğumuz və müvəffəqiyyətlə gerçəkləşdirdiyimiz Cənub Qaz Dəhlizi layihəsi isə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfədir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi bizim üçün çox əhəmiyyətlidir", - deyə Prezident İlham Əliyev qeyd edib.

Dövlətimizin başçısı bildirib ki, bütün bunlarla yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması xalqımızın qarşılaşdığı ən ağrılı problem olaraq qalmaqdadır. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində əzəli Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bir milyondan çox soydaşımız doğma yurd-yuvasından didərgin düşmüşdür. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə, Helsinki Yekun Aktının müddəalarına əsasən ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli şəkildə həll olunmalıdır. "Biz bu işdə ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın ardıcıl və qətiyyətli mövqeyinə və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik", - deyə Prezident İlham Əliyev qeyd edib.

Azərbaycan Prezidenti ABŞ Prezidentinə möhkəm cansağlığı, işlərində uğurlar, dost Amerika xalqına daim sülh və rifah diləyib.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 26 dekabr tarixli 616 nömrəli və "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 3 iyul tarixli 606 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin döyüş bayraqları və sərhəd hərbi dəniz bayraqları haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 283 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 5 avqust tarixli 1569 nömrəli, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 18 iyul tarixli 213 nömrəli və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" 2018-ci il 24 avqust tarixli 233 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1627-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

# Qaçqın və məcburi köçkünlər dövlətə arxalanırlar

## *İlham Əliyev: “O gün gələcək, mən buna inanıram, şübhə etmirəm. Əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir”*



***Ölkə əhalisinin ən həssas təbəqəsi olan, doğma yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət və qayğı, onların qarşılaşdıqları problemlərin aradan qaldırılması dövlət siyasətinin prioritetini təşkil edir. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət siyasəti qaçqın və məcburi köçkünlərin həyat səviyyəsini xeyli yüksəltmişdir. Bu qəbildən olan insanlar üçün hər cür infrastruktura malik mənzillər tikilmiş, qəsəbələr salınmış, yeni iş yerləri yaradılmış və onların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində müvafiq dövlət proqramları qəbul olunmuşdur.***

Ulu Öndər Heydər Əliyevin prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvarda məskunlaşmış məcburi köçkünlərlə keçirməsi, növbəti seçkilərdə ən layiqli namizəd İlham Əliyevin də eyni addımı atması təsadüfi deyildi. Bu görüşlər respublika əhalisinin həssas təbəqəsi olan qaçqın və məcburi köçkünlərə olan diqqət və qayğının təzahürü idi. Həmin vaxt prezidentliyə namizəd İlham Əliyev vəd etmişdi ki, əgər o, prezident seçilərsə, ölkədə bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Prezident seçkilərindən sonra xalqımız verilən vədin layiqincə yerinə yetirilməsinin şahidi oldu. Faktlar və real nəticələr də bunu təsdiqləyir.

### Əməli işlər, real nəticələr...

Son 16 ildə qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Həmin müddətdə qaçqınların və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən 51 Fərman və Sərəncam imzalanıb, “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”, həmin Proqrama 2 Əlavə təsdiq edilib. Faktlara müraciət edək:

-Azərbaycan Respublikasının Prezidenti tərəfindən ötən dövrdə qaçqın və məcburi köçkün problemi ilə bağlı 1 beynəlxalq konfrans, 2 müşavirə, xarici ölkələrin və beynəlxalq təşkilatların rəhbərləri ilə 800-dən çox, həmçinin, qaçqın və məcburi köçkünlərlə 30 görüş keçirilib. Dövlət büdcəsindən ayrılmış vəsait hesabına məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 3,5 dəfə artırılıb. 16 min ailəyə sosial yardım verilib. Məcburi köçkünlərə kommunal xidmətlərə görə sərf olunmuş vəsaitin məbləği 4,5 dəfə çoxalıb. 64,4 min məcburi köçkün ailəsinin hər biri qış mövsümündə ayda 40 litr ağ neftlə təmin olunur. Büdcədən maliyyələşdirilən müəssisələrdə, təşkilatlarda çalışmış, özlərindən asılı olmayan səbəblərə görə iş yerlərindən məhrum olmuş və işlə təmin edilməyən 11 min nəfərədək məcburi köçkünə orta aylıq əməkhaqqı ödənilir. Son 16 ildə dövlət ali məktəblərində ödənişli əsaslarla təhsil alan 8 min 700 məcburi köçkün tələbənin təhsil xərcləri dövlət büdcəsi vəsaiti hesabına ödənilmişdir.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə 3,8 milyard manat vəsait sərf edilib. Həmin vəsaitin 1,7 milyard manatı dövlət büdcəsinin, 1,4 milyard manatı Dövlət Neft Fondunun, 378 milyon manatı isə, digər təşkilatların payına düşür. Hazırda bir nəfər məcburi köçkünə il ərzində xərclənən vəsaitin məbləği 1100 manat təşkil edir ki, bu da, dünyanın digər münaqişə zonaları ilə müqayisədə ən yüksək göstərici olmaqla, 2003-cü ildəkinə nisbətən, 9 dəfə çoxdur. Məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 15 faizədək azalıb. Bundan başqa, 30 şəhər və rayonun ərazisində bütün sosial-texniki infrastruktura malik, ümumi sahəsi 1,5 milyon kvadratmetr olan 57 müasir qəsəbə və yaşayış kompleksi yaradılıb. Bu yaşayış məntəqələrinin hamısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Həmin yaşayış komplekslərinə çadır düşərgələrində, yük vaqonlarında, fin tipli qəsəbələrdə, məktəblərdə yataqxanalarda tikintisi yarımçıq qalmış binalarda müvəqqəti məskunlaşmış 23,5 min ailə və ya 110 min nəfər məcburi köçkün köçürülüb. Son 16 ildə qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Dövlət Neft Fondundan və digər mənbələrdən 1 milyard 546,9 milyon manat vəsait sərf olunub.

Bax, budur dövlətin, Prezidentin, Xalq-Prezident birliyinin uğurlu nəticəsi!

Bütün bunlar sübut edir ki, Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlət başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib.

### Sosial problemlərin həlli Birinci vitse-prezidentin xüsusi diqqət mərkəzindədir

Ümumiyyətlə, son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da, bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. Bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu.

Mehriban xanım Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi. 2017-ci ilin may ayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən yaşayış kompleksinin təməli qoyuldu. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin, Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edildi. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi başa çatdı.

2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində, qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. Evlərlə və mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı, artıq 300 minə çatır. Bu da 55 min ailə deməkdir.

### Yoxsulluq 75 faizdən 12 faizədək azalıb

Bütün bu reallıqlar, bir daha onu göstərir ki, Azərbaycanda məcburi köçkünlərə göstərilən diqqət və qayğının dünyada analoqu yoxdur. Özü də, bu, heç bir beynəlxalq Konvensiyaya, ya da öhdəliyə əsaslanmır, sadəcə, Prezident İlham Əliyevin siyasi iradəsinin ifadəsi və sosial-iqtisadi potensialının göstəricisidir.

Görülən fəaliyyətin nəticəsi olaraq, son 16 il ərzində məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 12 faizədək azalıb.

### Yurd həsrətinə son qoyulacaq gün uzaqda deyil

Əlbəttə, öz doğma yurd-yuvalarından didərgin düşmüş insanlar üçün salınan qəsəbələr, tikilən evlər qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşmasına xidmət etsə də, onlar bu ünvanlarda müvəqqəti məskunlaşdıqlarını və tezliklə ata-baba torpaqlarına qayıdacaqlarını yaxşı bilirlər. Yurd nisgilinə son qoyulduqdan sonra da, bu insanlar hər zamankı kimi, dövlətlərinin onların arxasında olacağına tam əmindirlər. İşğal altındakı ərazilər azad olunduqdan sonra bu yerlərdə dövlətin yardımı ilə daha təmtəraqlı və yüksək şəraiti olan evlərin inşa olunacağını da yaxşı bilirlər.

Goranboy rayonuna səfəri çərçivəsində, 688 məcburi köçkün ailəsi üçün nəzərdə tutulan və birinci mərhələdə 165 ailənin məskunlaşacağı yeni yaşayış məhəlləsinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə iştirakı zamanı Prezident İlham Əliyev bildirmişdir: “Bizim torpaqlarımız azad olunandan sonra biz həmin torpaqlarda bundan da gözəl binalar tikəcəyik. Bütün şəhərləri bərpa edəcəyik və öz vətəndaşlarımızı doğma torpaqlara qaytaracağıq. O gün gələcək, mən buna inanıram, şübhə etmirəm. Əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir”.

Beləliklə, Prezident İlham Əliyevin siyasətini hər zaman dəstəkləyən və Onun ətrafında sıx birləşən qaçqın və məcburi köçkünlər, yurd həsrətinə son qoyulacaq günün uzaqda olmadığına qəti əmindirlər. Çünki dövlətin, Onun rəhbərinin bu istiqamətdə atdığı addımları, həyata keçirilən məqsədyönlü siyasətin uğurlu nəticələrini aydın görür və yurd nisgilinə tezliklə son qoyulacağına inanırlar.

***RƏFİQƏ KAMALQIZI***

# Dövlətin təhlükəsizliyi və milli maraqlar hər şeydən üstün olmalıdır



***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ötən il Gəncədə baş vermiş terror aktlarının ildönümü ilə bağlı KİV-lərə xüsusi açıqlama verib. AZƏRTAC açıqlamanı təqdim edir. Açıqlamada deyilir:***

-Azərbaycan dövlətçiliyinə qarşı qəsd aktı kimi dəyərləndirilən Gəncə hadisələrindən bir il ötür. Ötən müddətdə aparılmış istintaq tədbirləri nəticəsində ortaya çıxan faktlar bir daha təsdiqlədi ki, Gəncə hadisələri bəzi dövlətlərin radikal klerikal dairələrinin, separatçıların və ölkə daxilində siyasi fəaliyyət pərdəsi altında şəxsi ambisiyalarını həyata keçirmək istəyən qrupların dövlətə və milli maraqlarımıza qarşı birgə məkrli təxribatı idi. Mediada, xüsusən sosial mediada geniş yayılmış məlumatlardan görünür ki, həmin qüvvələrin ötən il reallaşdırmağa çalışdıqları ssenarinin puç edildiyi, vətəndaşlarımızın dövlətçiliyin keşiyində durduğunu nümayiş etdirdiyi Gəncə hadisələrinin ildönümü ilə əlaqədar üzvlərinin əksəriyyətini Azərbaycanın keçmiş vətəndaşları təşkil edən, radikal islamçı qruplaşmalardan biri yenidən fəallaşıb. Qruplaşmanın sosial şəbəkələrdəki səhifə və profillərində, habelə bəzi dövlətlərin klerikal dairələri tərəfindən idarə olunan saytlarda fəallaşması birmənalı olaraq ifrat dini radikallığın, fundamentalizmin dəstəklənməsi kimi dəyərləndirilə bilər.

Dini şüarlarla pərdələnən, təxribatçı, niyyəti dövlətlə xalq arasında inamsızlıq, mümkün olarsa düşmənçilik toxumları səpmək olan bəzi internet resurslarında Gəncədə törədilmiş terror aktının əsas personajı, Rusiya vətəndaşı Yunis Səfərovun Suriyada döyüşlərdə iştirakını təsdiqləyən kadrlar nümayiş etdirilir və onu əsl "qəhrəman" kimi populyarlaşdırmağa cəhdlər olunur, xanımının hadisədən dərhal sonra etdiyi müraciət təkrar-təkrar yayımlanır. Təəssüf doğuran odur ki, özlərinin demokrat və dünyəvi dövlət tərəfdarı olduqlarını iddia edən bəzi müxalifət liderləri və fəalları da terroru təşviq edən belə bir kampaniyaya dəstək verir, ifrat ekstremizmi özünə ideologiya seçmiş xarici qruplaşmaların istifadə etdiyi şüarları təkrarlayır, bu səpkidə çağırışlar səsləndirir, ölkəmizin çoxəsrlik dini dözümlülük mühitini, tolerant imicini şübhə altına alırlar.

Bir sözlə, demokratiya dəyərlərinə sadiq olduğunu iddia edən bu tipli müxalifətin əslində həmin dəyərlərə qənim kəsilənləri, radikalizmi, ifrat dini fundamentalizmi dəstəklədiyi göz önündədir. Belə olan halda, həmin müxalifətə, görəsən, hansı Azərbaycan gərəkdir? Dünyanın inkişaf etmiş ölkələri sırasında yer alan, sabit, qüdrətli və demokratik Azərbaycan, yoxsa Sudan, Somali, Liviya, Suriya və s. ölkələr kimi amansız daxili savaşın, qanlı xaosun, faciəvi vətəndaş qarşıdurmasının və terror qruplaşmalarının tüğyan etdiyi poliqon? Bəlkə onlar Azərbaycanı orta əsrlərin qaranlıq dövrünə qaytarmaq, ölkəmizi şəriət qanunları ilə idarə olunan məkana çevirmək istəyirlər?...

Ötən il iyul ayının 3-də axşam Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı suiqəsd törədən birinin cinayətinin terror xarakteri, cinayəti törədənin xarici vətəndaş olduğu, Azərbaycan dövləti tərəfindən sanksiyalaşdırılmayan döyüş əməliyyatlarında iştirak etdiyi məlumdur. Yerli və xarici mediada dərc olunmuş materiallarda Y.Səfərovun həyat yoldaşının bir neçə dəfə yayımlanmış videomüraciətlərində onun bu əməli şəxsi motivlərlə, qisas naminə və ya bəzilərinin iddia etdiyi kimi, "sosial zülmə" qarşı etiraz olaraq deyil, məhz xaricdə qanunsuz silahlı birləşmələrin tərkibində döyüşdüyü "ideallar" naminə, yəni, Azərbaycanda "şəriət dövləti yaratmaq" üçün törətdiyi də bəlli olub. Gəncədə terakt baş verəndən dərhal sonra radikal dini fundamentalizmi təbliğ edən Facebook səhifələri və saytlar, habelə Vətənə xəyanət ittihamı ilə mühakimə edilmiş separatçılarla bağlı kütləvi informasiya vasitələri Yunis Səfərovu yeni "Gəncəbasar qisasçısı", "qəhrəman" elan etməyə tələsdilər. Bu dəfə də onlara Avropadakı anti-Azərbaycan müxalifəti və onların rəhbərlik etdiyi internet kanallarından, orada yaşayan antimilli ünsürlərdən kömək gəldi. Rusiya və digər xarici ölkələrdə separatçı kimi "ad-san qazanmış" çevrələr də cinayətkarın müdafiə komitəsini yaradıb xarici dövlət rəsmilərinə müraciət etdilər.

Xatırladım ki, bu teraktdan bir ay əvvəl, 2018-ci il mayın 28-də ABŞ-ın nüfuzlu "Foreign Policy " nəşri "Gəncə keçidi"nin Qərb üçün əhəmiyyəti haqqında yazı dərc edərək baş verəcək təxribatlar haqqında xəbərdarlıq edirdi. Bu gün terroru təbliğ edən radikalların və onların havadarlarının yenidən fəallaşması, Azərbaycana təhdidlər ünvanlamaları isə Gəncə hadisələrinin ildönümü ilə yanaşı, TANAP-ın istifadəyə verilməyə vaxta təsadüf edir. Qəribə deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə Ermənistan, bəzi dövlətlərdəki klerikal dairələr, ekstremistlər, xarici ölkələrə qaçmış, sadəcə, pula və məişət rahatlığının təminatına can atan bəzi azərbaycanlılar tərəfindən aparılan təmərküzləşmiş, təhlükəli ideoloji təxribat bu günlərdə yenidən canlanıb.

Demokrat və dünyəvi olduqlarını vurğulayanlar mövqe və demokrat prinsipiallığı nümayiş etdirərək bu tipli anti-Azərbaycan dairələrini və onların ölkəmizdəki uzantılarını qınamaq əvəzinə, terror aktlarına görə həbs olunmuş şəxsləri qəhrəmanlaşdırır, merkantil maraqların təminatı, yeni maliyyə imkanları əldə etmək naminə onları vicdan məhbusu elan edərək xüsusi siyahılara salır, azadlığa buraxılmalarına çalışırlar. Yaxın Şərq və Şimali Afrikada son illərdə baş verən proseslər göstərdi ki, hər hansı cəmiyyətdə özünü "müxalifət" adlandıran qrup və kəsimlər terrorçunu, yaxud terrorçuları qəhrəman kimi təqdim etməyə, terroru mifləşdirməyə başladıqda cəmiyyət və dövlət belə təhlükəli fəsada qanun çərçivəsində sərt reaksiya verməzsə, hadisələr təhlükəli məcraya yönəlir, ideoloji təxribat vətəndaş müharibəsi, terrorun tüğyan etməsi ilə nəticələnir.

Dövlətin təhlükəsizliyi və milli mənafelər heç bir zaman, heç bir vəchlə və ya şərtlə müzakirə mövzularına çevrilməməlidir. Bəhs etdiyim dəyərlərə kiçik də olsa, təhdid yaranarsa, hər bir azərbaycanlı vətəndaş mövqeyi, milli iradə ortaya qoymalıdır. Mövcud həssas vəziyyətdə cəmiyyətimiz qətiyyət və sayıqlıq, vətəndaşlarımız milli dövlətçilik naminə sıx birlik nümayiş etdirməlidir. İctimai rəyə təsir imkanları olan ziyalılarımız daha düşünülmüş şəkildə və həssas davranaraq, konkret insanlara bəslənən münasibətlə Vətənin mənafeləri və dövlətin maraqlarını bir-birindən fərqləndirməlidir.

# YAP-da Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyası böyük ruh yüksəkliyi ilə davam edir




Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində "Silahlı Qüvvələrə Yardım Fonduna dəstək üçün xeyriyyə aksiyası keçirək" sərlövhəli paylaşımında müharibə vəziyyətində, bir milyondan çox məcburi köçkün və qaçqını olan ölkədə xeyriyyə aksiyası keçirmək üçün kifayət qədər səbəblərin olduğunu bildirmişdir. Yeni Azərbaycan Partiyasının dəfələrlə bu cür aksiyalar keçirdiyini xatırladan Əli Əhmədov, Azərbaycan Silahlı Qüvvələrinə dəstək məqsədilə Silahlı Qüvvələrə Yardım Fondu üçün xeyriyyə aksiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir.

"Gəlin Ordumuza dəstək olaq"- deyən Əli Əhmədov YAP üzvlərini Azərbaycanın Silahlı Qüvvələrinə Yardım Fonduna dəstək üçün aksiyaya qoşulmağa dəvət edib və nümunə olaraq özünün aylıq əmək haqqının 50 faizini Silahlı Qüvvələrə Yardım Fonduna köçürmüşdür. Baş nazirinin müavini Əli Əhmədovun bu təşəbbüsünü alqışlayan Yeni Azərbaycan Partiyasının üzvləri, eləcə də partiyanın üzvü olmayan insanlar böyük ruh yüksəkliyi ilə Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasında iştirak edirlər. Cəmiyyətimizin müxtəlif təbəqələrinin nümayəndələri kütləvi şəkildə bu təşəbbüsə qoşularaq Azərbaycan Ordusuna yüksək dəstək nümayiş etdirirlər.

Silahlı Qüvvələrə Yardım Fonduna dəstək göstərən insanlar sosial şəbəkələrdəki paylaşımlarında bildirirlər ki, Vətən, xalq sözlərini əllərində bayraq edərək, süni şəkildə ictimai narazılıq yaratmağa, sabitliyi pozmağa cəhd edən bəzi dırnaqarası varlıqlara Əli Əhmədovun bu təşəbbüsü tutarlı cavab oldu. Bu gün Azərbaycanda yüksəlişin və inkişafın simvoluna çevrilmiş Yeni Azərbaycan Partiyasında Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyası əsl vətənpərvərlik nümunəsi və böyük ruh yüksəkliyi ilə davam edir.

# NATO komandanı: "Azərbaycan Alyansın etibarlı tərəfdaşıdır"



İyulun 3-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə səfərdə olan NATO-nun Xüsusi Əməliyyatlar Qərargahının komandanı, vitse-admiral Kolin Kilreynin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan ilə Şimali Atlantika Alyansı arasında 25 illik dayanıqlı əməkdaşlıqdan danışan Baş Qərargah rəisi bu əlaqələrin inkişaf etdiyini, Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyətini və Əfqanıstandakı "Qətiyyətli Dəstək" missiyasına verdiyi töhfəni qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik N.Sadıkov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ölkəmizə ilk səfərindən məmnunluğunu ifadə edən vitse-admiral K.Kilreyn Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda sülhməramlılarımızın göstərdiyi peşəkarlığı yüksək qiymətləndirib. Görüşdə tərəflər Azərbaycanın və NATO-nun xüsusi təyinatlı qüvvələri arasında gələcək əməkdaşlığın inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

# AŞPA-nın həmməruzəçisi Azərbaycana gəlib



Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak Bakıya gəlib. SİA-nın verdiyi məlumata görə, Fransa bürosu xəbər verir ki, iyulun 4-6-nı əhatə edəcək səfər çərçivəsində diplomat Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri yerinə yetirib-yetirmədiyini müəyyənləşdirmək üçün rəsmi şəxslərlə və vətəndaş cəmiyyəti nümayəndələri ilə bir sıra görüşlər keçirəcək.

Xatırladaq ki, ilkin olaraq bu ilin əvvəlinə planlaşdırılmış AŞPA həmməruzəçilərinin Azərbaycana səfəri "Brexit"lə bağlı təxirə salınmışdı.

# Heydər Əliyev Fondunun Xəzərin sahilində təşkil etdiyi şənlik uşaqlara unudulmaz bir gün yaşatdı













***İyulun 3-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Fondun valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təşkil etdiyi növbəti əyləncə və istirahət proqramında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu uşaqları paytaxtın dənizkənarı istirahət məkanlarından birində - "Dalğa Beach" istirahət mərkəzində bir araya topladı. Fondun təşəbbüsü ilə təşkil olunan tədbirə xüsusi avtobuslarla gətirilən uşaqları nağıl qəhrəmanları qarşıladılar. Nizami rayonunun 1, Suraxanı rayonunun 2, Xətai rayonunun 3 saylı uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və 11 saylı inteqrasiya təlimli internat məktəbinin sakinləri bu məkanda yay mövsümünün ovqatını hiss etdilər, günəşli günlərin qayğısız anlarını yaşadılar.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da övladı ilə birlikdə bu şənliyə qoşuldu.

Balacalara xas olan hədsiz səmimiyyət və sevinclə əylənən uşaq evlərinin sakinləri və xüsusi qayğıya ehtiyacı olan uşaqlar müxtəlif oyunlarda, attraksionlarda iştirak etdilər, bu isti yay günündə hovuzda üzdülər, onlar üçün hazırlanmış müxtəlif əyləncə proqramları ilə maraqlı asudə vaxt keçirdilər, ətrafdakılarla sevinclərini bölüşdülər.

Heydər Əliyev Fondunun vitse-prezidenti uşaqlarla söhbət etdi, onlar üçün təşkil edilən bu şənliklə bağlı fikirləri ilə maraqlandı, hər biri ilə şəkil çəkdirdi. Uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və inteqrasiya təlimli internat məktəbinin sakinləri təəssüratlarını bölüşdülər, burada yeni dostlar qazandıqlarını söylədilər, iştirak etdikləri oyunlar, əyləndikləri attraksionlar barədə danışdılar. Bununla da xeyriyyəçiliyi, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Heydər Əliyev Fondu paytaxtdakı uşaq müəssisələrinin sakinləri ilə görüşə növbəti hədiyyəsi ilə gəldi, onlara maraqlı və unudulmaz bir gün yaşatdı.

Fondun vitse-prezidenti Leyla Əliyeva uşaqlarla birgə rəqs etdi.

Hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim olundu. Şənlikdə 200-yə yaxın uşaq iştirak edirdi.

# Azərbaycan KİV rəhbərlərinin Moskva şəhərinə səfəri davam edir







***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərindən ibarət 12 nəfərlik nümayəndə heyətinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı davam edir. Nümayəndə heyətinin səfər çərçivəsində Rusiyanın jurnalist təşkilatlarında və aparıcı KİV-lərin redaksiyalarında görüşləri keçirilir.***







KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, növbəti görüş Ümumrusiya Dövlət Teleradio Şirkətində keçirilib. Heyət üzvlərini şirkətin Xarici əlaqələr departamentinin rəhbəri Pyotr Fyodorov və onun müavini Aleksey Perevoşçikov qarşılayıblar. KİVDF-nin icraçı direktoru, səfər qrupunun rəhbəri Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib. Vüqar Səfərli Rusiya-Azərbaycan media qurumlarının sıx təmaslarının qurulmasının hər iki ölkənin maraqlarına xidmət etdiyini vurğulayıb.

Pyotr Fyodorov Azərbaycan KİV təmsilçilərinin Rusiya Federasiyasına səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib.

Nümayəndə heyətinin üzvləri Rusiyanın Dövlət Teleradio Şirkətinin xəbərlərində Azərbaycan barədə informasiyaların və ayrı-ayrı proqramlarında ölkəmizlə bağlı müzakirələrin daha səmərəli olması üçün təkliflərini səsləndiriblər. Pyotr Fyodorov təklifləri qəbul etdiyini bildirib. Şirkətin təşkil etdiyi proqramlarda Azərbaycan tərəfindən ekspertlərə istinadlar edilməsi, onlarla əməkdaşlığın gücləndirilməsi barədə razılıq əldə olunub.

Nümayəndə heyətinin növbəti görüşü "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyində keçirilib. Azərbaycan KİV təmsilçiləri əvvəlcə agentliyin iş şəraiti ilə tanış olublar. Daha sonra agentliyin baş direktoru Dmitri Kiselyovla görüş keçirilib. D.Kiselyov Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda atdığı addımları diqqətlə müşahidə etdiklərini və bu yolda Prezident İlham Əliyevin yürütdüyü siyasəti təqdir etdiklərini diqqətə çatdırıb. O, Azərbaycanın regionda oynadığı rola, Rusiya ilə münasibətlərdə sərgilədiyi mövqeyə diqqət çəkərək, iki ölkənin münasibətlərinin daha da möhkəmlənməsində KİV-lərin də üzərinə mühüm məsuliyyət düşdüyünü, bu baxımdan Azərbaycan KİV təmsilçilərinin Rusiya Federasiyasına səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini vurğulayıb. Səfər proqramı davam edir.

## Mixail Qusman: "Soruşma ki, Azərbaycan sənin üçün nə edib, de ki, sən Azərbaycan üçün nə etmisən"




Mən Bakı ənənələri əsasında tərbiyə almışam. Orada insanlar hər gün çay süfrəsi arxasında görüşürlər. AZƏRTAC xəbər verir ki, Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman bu fikirləri TASS-ın jurnalisti Səadət Qədirovanın YouTube "kadyrova.online" kanalında yayımlanan "Arzular gerçəkləşir" adlı müəllif verilişində söyləyib. M.Qusman qeyd edib ki, sosial şəbəkələri xoşlamır. O deyib: "Bu şəbəkələr surroqatdır, onlar canlı ünsiyyəti əvəz etmir. Mayakovski demişkən, bu, qəhvə adı ilə təklif edilən, əslində yerkökündən hazırlanmış içkiyə oxşayır".

M.Qusman S.Qədirovaya müsahibəsində Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə münasibət bildirib, vurğulayıb ki, Rusiyada əslən Azərbaycandan olan görkəmli adamlar yaşayır. Onlar elm, mədəniyyət, biznes və digər sahələrdə təmsil olunur. O deyib: "İnsanlar Rusiya cəmiyyətinin tərkib hissəsidir, lakin eşq olsun onlara ki, öz Vətənləri ilə əlaqəni kəsmirlər. Con Kennedinin məşhur bir kəlamı var: "Soruşma ki, sənin ölkən sənin üçün nə edib, özündən soruş ki, sən öz ölkən üçün nə edə bilərsən".

M.Qusmanın sözlərinə görə, əslən Azərbaycandan olan, lakin Rusiyada yaşayan hər bir azərbaycanlı "Azərbaycan mənim üçün nə edib, - deyə soruşmaq əvəzinə özündən soruşmalıdır ki, mən Azərbaycan üçün nə etmişəm". Məşhur həmvətənimiz Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının birləşməsinin vacibliyini vurğulayaraq deyib: "Gərək bu təşkilatlar birləşmə formasını tapıb insanlara fayda versinlər".

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında milli mülkiyyətlərə aid məsələlər müzakirə edilib




***Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 3-də milli mülkiyyətlərə aid məsələlərin müzakirəsi ilə işini davam etdirib. AZƏRTAC xəbər verir ki, sessiyanın növbəti günündə UNESKO-nun Ümumdünya İrs Siyahısına salınan mədəni mirasın qorunma vəziyyəti haqqında hesabat dinlənilib.***

Tədbiri açan sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev müzakirə olunacaq hesabatdan danışıb və hər kəsi müzakirələrdə fəal olmağa çağırıb.

Sessiyada iştirakçı ölkələrin nümayəndələri Asiya-Sakit okean regionunda yerləşən mədəni mirasın real vəziyyətindən söz açıblar.

Tədbirdə Norveç, Braziliya, Macarıstan, Tanzaniya, Küveyt, Qvatemala, Tunis, Avstraliya, Azərbaycan, Çin və digər ölkələrin təmsilçiləri təqdim olunan hesabatla bağlı fikirlərini bildiriblər.

Strateji ətraf mühitin qiymətləndirilməsinin vacibliyindən və bu istiqamətdə görülən işlərdən söz açılıb. Bildirilib ki, dialoqun qurulması üçün belə hesabatlar mühüm əhəmiyyət daşıyır. Bütün layihələr monitorinq qrupunun tövsiyəsi əsasında həyata keçirilməlidir. Elektrik stansiyaları bufer zonadan kənarda inşa edilməlidir. İqtisadi inkişaf və ətraf mühit arasındakı əlaqə ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bunlar qarşılıqlı şəkildə müzakirə olunmalıdır.

Azərbaycan Kuba və Çinin Asiya-Sakit okean regionunda yerləşən mədəni mirasın qorunması istiqamətindəki təkliflərini dəstəkləyib. Su və hava mənbələrinin çirklənməsinin qarşısının alınması üçün qoruyucu tədbirlər həyata keçirilməlidir. Günün birinci yarlısında Hindistan ilə Banqladeşin sərhədində yerləşən, dünyanın ən böyük manqrov meşəsi olan Sundarbanda elektrik stansiyasının tikintisinə dair müzakirələr aparılıb. Bildirilib ki, Banqladeş hökumətinin apardığı bu tikinti ətraf mühitə və milli irsə böyük təhlükədir. Bununla bağlı bir çox ölkələr öz fikir və təkliflərini səsləndiriblər.

Qeyd edək ki, meşənin Hindistandakı hissəsi milli park elan edilib və 1997-ci ildə UNESKO-nun Ümumdünya İrsi Siyahısına salınıb.

Bu məsələ ilə bağlı işçi qrup yaradılıb və onlar gün ərzində Sundarbanda elektrik stansiyasının tikintisi ilə bağlı hesabatın müvafiq bəndində dəyişiklik edəcəklər və bu məsələyə yenidən baxılacaq. Sessiyada üzv ölkələr müzakirələr zamanı diqqətə çatdırıblar ki, milli parkların qorunması ilə əlaqədar mənbələrin çirklənməsi məsələləri diqqətdə saxlanılmalı, qoruyucu tədbirlər görülməlidir. Küveyt, Zimbabve, Avstraliya, Kuba və Çinin dəniz dibinin dərinləşməsi, monitorinq, tərəflərin idarəçilik planı və milli parklarda qorunan heyvanlarla bağlı əlavə tədbirlər həyata keçirilməlidir.

Sonra gündəliyə uyğun olaraq Vyetnamda Phong Nha Ke Bang milli parkı ilə bağlı məsələ müzakirə edilib. Vurğulanıb ki, parkda tikinti işlərinin aparılması planlaşdırılır və bu, ərazidə flora və faunaya mənfi təsir göstərə bilər. Milli parkın Ümumdünya İrs Komitəsi tərəfindən nəzarətə götürülməsi və buna qarşı addımlar atması təklif edilib. Vyetnamın təmsilçisi çıxışı zamanı bildirib ki, bu mövzuda təhdidlərin yaranmaması üçün komitə ilə razılıq əldə olunub. Üzv ölkələr Vyetnamın qabaqlayıcı tədbir görməsini müsbət qiymətləndirib və təklifləri dinlənildikdən sonra müvafiq qərar qəbul olunub.

Asiya-Sakit okean regionunda yerləşən mədəni mirasın real vəziyyətinin müzakirəsi zamanı da Avstraliya, Hindistan, İndoneziya və Yaponiyanın meşə massivlərinin Ümumdünya İrs Komitəsinin siyahısına daxil edilməsi ilə bağlı məsələ müzakirə olunaraq müvafiq qərar qəbul edilib.

Daha sonra Kanadada Meşə Öküzü Milli Parkının dağılmaq üzrə olması haqqında məsələyə baxılıb. Milli park ərazisində yaşayan yerli icmanın nümayəndəsi bu məsələyə xüsusi diqqətin ayrılmasını xahiş etdi. Bundan başqa, Latın Amerikası və Karib regionunun milli parklarının mühafizəsi məsələləri də müzakirə olunub.

Günün ikinci yarısında işini davam etdirən sessiyada ərəb dövlətləri regionunda qarışıq irslə bağlı hazırlanmış qərar müzakirəsiz qəbul edilib. Sonra Şimali Makedoniyadakı Oxrid gölü və onun ətrafında təbii-mədəni duruma olan təhdidlər geniş müzakirələr doğurub. Bununla bağlı Dünya İrs Komitəsinin hazırladığı hesabat dinlənilib. Hesabatda vurğulanıb ki, urbanizasiyanın və turizmin inkişafı, gölün ətrafındakı monastır-kilsənin yeni tikilən binalar tərəfindən sıxışdırılması həmin ərazinin qorunmasını təhdid edir. Hələ 40-cı, 41-ci sessiyalarda qərar qəbul edilsə də, Oxrid gölü ilə bağlı konservasiya işləri lazımınca aparılmayıb. Çıxış edən ölkələrin nümayəndələri Şimali Makedoniyaya vəziyyəti düzəltmək üçün daha bir müddət vaxt verilməsini təklif ediblər. Vurğulanıb ki, əgər Dünya İrs Komitəsinin tövsiyələri nəzərə alınmazsa, o zaman Oxrid gölü təhlükə ilə üzləşən obyektlər siyahısına daxil ediləcək.

Sessiyada Tanzaniya və Tunisdəki unikal təbii mühitinin və arxeoloji zonanın qorunması da müzakirə edilib. Maraq doğuran növbəti məsələ Qazaxıstandakı Xoca Əhməd Yasəvinin məqbərəsi ətrafında bufer zonanın vəziyyəti ilə bağlı olub. Qırğızıstan və Azərbaycan nümayəndəlikləri Türküstan şəhərində görülən abadlıq işlərinin abidəyə heç bir zərər verməyəcəyini vurğulayıblar. Qazaxıstan hökumətinin gördüyü işlər müsbət qiymətləndirilib, tikinti işlərinin məqbərədən kənarda aparıldığı təsdiq edilib. Bu abidənin təhlükə siyahısına daxil edilməsinə ehtiyac olmadığı vurğulanıb.

Müzakirə zamanı ICOMOS təmsilçisi tövsiyə etdi ki, Xoca Əhməd Yəsəvi məqbərəsi ətrafında konservasiya zonası genişləndirilsin. Beynəlxalq Memarlar İttifaqının nümayəndəsi Türküstan şəhərinin inkişafı ilə bağlı məqbərəni qorumağın vacibliyini vurğulayıb və sonda təkliflər hazırlanan qərar layihəsində nəzərə alınıb. Sessiya sabah öz işini davam etdirəcək.



# YAP Səbail rayon təşkilatı cari ilin birinci yarısındakı fəaliyyətinin yekunları ilə bağlı tədbir keçirib



***Dünən Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının rayon şurasının və idarə heyətinin geniş iclası keçirilib. İclasda 2019-cu ilin birinci yarısında YAP Səbail rayon təşkilatı tərəfindən görülən işlər və qarşıda duran vəzifələr, eləcə də, cari məsələlər müzakirə olunub.***

İclasda çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev gündəlikdə duran məsələlər haqqında məlumat verib.

Ş.Hacıyev bildirib ki, əvvəlki illərdə olduğu kimi, 2019-cu il ölkəmiz üçün çox uğurlu il olacaq: "Məhz ölkə Prezidenti İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir ki, 2017-ci il stabidləşmə, 2018-ci il iqtisadi inkişaf, 2019-cu il isə, uğurldu inkişaf ili olacaqdır".

Ş.Hacıyev, xüsusilə, cari ilin birinci yarısında ölkəmizdə bütün sahələrdə həyata keçirilən əsaslı islahatlardan, əldə olunan uğurlardan danışıb. Azərbaycan Prezidenti İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə, xüsusilə, problemli kreditlər, çoxmənzilli binalarla bağlı problemlərin aradan qaldırılması, minimum əməkhaqqının və büdcədən maliyyələşən təşkilatlarda çalışan şəxslərin əməkhaqlarının artırılması və digər istiqamətlərdə mühüm əhəmiyyət kəsb edən fərman və sərəncamları yüz minlərlə vətəndaşın həyatında əhəmiyyətli dərəcədə hiss edilən dəyişikliklərə səbəb olduğunu vurğulayıb.

Rayon təşkilatının sədri, həmçinin, məmnunluqla vurğulayıb ki, uğurların əldə olunmasına YAP-ın hər bir üzvünün öz töhfəsi var: "YAP ölkəmizin inkişafındakı yeri və roluna görə dünya miqyasında ən uğurlu fəaliyyət göstərən siyasi qüvvələrdən biridir. Təsadüfi deyil ki, partiyamızın Sədri, Azərbaycan Prezidenti İlham Əliyev də ölkəmizin əldə etdiyi uğurlarda YAP-ın fəaliyyətini dəfələrlə yüksək qiymətləndirib. Bu isə, partiyanın hər bir üzvünün məsuliyyətini daha da artırır".

Rayon təşkilatı sədri məlumat verib ki, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edən təşkilat bir sıra tədbirlər reallaşdırıb, o cümlədən, partiyanın qurucusu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə genişmiqyaslı konfrans, dəyirmi masa, aksiya və digər tədbirlər keçirib, "Müstəqil Azərbaycan dövlətinin qurucusu" adlı sanballı nəşrin işıq üzü görməsinə nail olub. Millət vəkili Ş.Hacıyev təşkilatın tədbirlər planı və görüləcək işlərdən də danışıb.

Tədbirdə digər çıxış edənlər də YAP Səbail rayon təşkilatının hesabat dövründəki fəaliyyətini yüksək qiymətləndiriblər.

İclasda YAP Səbail rayon təşkilatının sədr müavini Muxtar Nağıyevə anadan olmasının 60 illik yubileyi münasibətilə xatirə paketi ilə təltif edilib. Həmçinin, yüksək fəallıqları ilə seçilən bir sıra üzvlərə təşəkkürnamələr təqdim olunub.

Sonda gündəlikdə duran digər məsələlər də müzakirə olunub, qarşıda duran vəzifələr barədə fikir mübadiləsi aparılıb.

**RƏFİQƏ KAMALQIZI**

# Əli Kərimli terrorçudan "qəhrəman" düzəldənlər sırasında

## AXCP-nin və Milli Şuranın sosial media mərkəzli terror zehniyyəti Azərbaycana nə vəd edir?

Bir insanın, üstəlik, o həm də dövlət nümayəndəsidirsə, fiziki varlığına qəsd edilməsi, rəsmi səlahiyyətlərini yerinə yetirməsinə mane olmaq üçün ölümünə səbəb ola biləcək şəkildə hücuma məruz qoyulması terrorizmdir. İfadə tərzləri bəzən fərqli olsa belə, bütün aparıcı beynəlxalq təşkilatların, ümumilikdə beynəlxalq hüququn ötən il Gəncədə icra başçısına atəş açılması kimi olaylara prinsipial yanaşması bu yöndədir.

O da sirr deyil ki, terrorçu qruplaşmalar hədəfə aldığı dövlətləri və cəmiyyətləri, sadəcə, odlu silahlarla, partlayıcı maddələrlə, kütləvi ölüm hallarına səbəb ola biləcək kimyəvi vasitələrlə yox, həm də internetdən istifadə edərək, sosial mediada təbliğat apararaq təhdid edirlər. Gəncədə baş vermiş terror aktının ildönümü ərəfəsində həmin qanlı hadisələrin əsas personajı olan Rusiya vətəndaşı Yunis Səfərova mənəvi-siyasi dəstək kampaniyasına başlanması da məhz bu kontekstdədir.

Kampaniya çərçivəsində əksəriyyəti saxta olan və xaricdən idarə olunan sosial media hesabları vasitəsi ilə Yunis Səfərovun Suriyada döyüşlərdə iştirakını görüntüləyən kadrlar nümayiş etdirilir, həyat yoldaşının Gəncədəki teraktdan dərhal sonra etdiyi çıxış təkrar-təkrar yayımlanır, terror təşkilatları üçün ənənəvi olan metodlarla aktın icraçısı "qəhrəman" kimi təqdim edilir. Eyni təqdimatla ideoloji və maliyyə hövzəsi Azərbaycanın siyasi hakimiyyətinə də, hüquq-mühafizə orqanlarına da, elə cəmiyyətin özünə də yaxşı məlum olan, xaricdən Azərbaycan dilində materiallar yayımlayan radikal dini saytlar da çıxış edirlər. Aparılan təbliğatda qeyri-



**Taleh ŞAHSUVARLI,
AzNews.az**

qanuni hərbi birləşmələr yaradılması təqdir olunur, Azərbaycan dövlətinin məzhəb savaşına sürüklənməsinə açıq mətnlə çağırışlar edilir, ölkənin çoxəsrlik dini dözümlülük mühiti, tolerant imici şübhə altına alınır.

İşin içində həm də Ermənistanın xüsusi xidmət orqanları var. Gəncə terrorçusunu açıq şəkildə "qəhrəman" elan edərək sosial şəbəkələr vasitəsi ilə "Yunis Səfərov" hərəkatı yaratmaq təşəbbüsü Ermənistan xüsusi xidmət orqanlarına məxsusdur. İşğalçı ölkənin kəşfiyyatı bu ideyanı əlaltıları olan OTV-nin bədnam rəhbəri Zabil Məhərrəmovun dili ilə gündəmə gətirib. İlk dəfə deyil. Unutmamısınızsa, Z. Məhərrəmov "Nardaran hadisələri" ərəfəsində də fəallaşmışdı, "Kərbübəladır Nardaran" mətləsi ilə şiə rövzələrinə bənzər radikal çağırışlar ehtiva edən şeirlər yazır, separatçılığı vəsf edirdi. Mətbuatdan artıq hər kəsə məlumdur ki, bu yaxınlarda Ermənistanda "elmi konfrans" adı altında keçirilən bir tədbirdə Yerevan Dövlət Universitetinin iranşünaslıq kafedrasının müdiri Vardan Voskanyanın rəhbərlik etdiyi, ölkəmizdə etnoslararası və məzhəblərarası sülh mühitini pozmaq üçün ixtisaslaşmış "xüsusi qrup" Taleh Bağırzadəni "yaşıl Azərbaycan inqilabı"nın lideri elan edib. Həmin konfransın da əsas çıxışçıları Zabil Məhərrəmov, Zahirəddin İbrahimi kimi xainlər idi.

Düzdür, Taleh Bağırzadənin "Müsəlman Birliyi Hərəkatı" adlandırılan qruplaşması həmin konfransda verilən bəyanatlara mənfi reaksiya göstərdi. Lakin bu etirazın sözügedən tədbir Azərbaycanın kütləvi informasiya vasitələrində sərt tənqid olunduqdan sonra bildirilməsi, o cümlədən yayılan açıqlamada yer alan "Qarabağı işğaldan azad edə biləcək potensial güc Hüseyni əqidədə olanların gücüdür" cümləsi diqqətdən qaçmadı. Hər halda "Müsəlman birliyi"nin xaricdə mənzillənən, Azərbaycan vətəndaşlarını müxtəlif üsullarla tələyə salaraq İraq və Suriyadakı vətəndaş müharibələrinə cəlb edən "Hüseyniyyun" terror qruplaşmışı ilə eyni üslub seçməsi təsadüfə bənzəmir. Hər iki qurum vahid mexanizmin tərkib hissələri kimi nəzərə çarpır.

Nəzərdən qaçırılması mümkün olmayan daha iki ciddi nüans var.

Gəncə hadisələrindən bir ay əvvəl 2018-ci il mayın 28-də ABŞ-ın nüfuzlu "Foreign Policy" nəşri "Gəncə keçidi"nin Qərb üçün əhəmiyyəti haqqında yazı dərc edərək baş verəcək təxribatlar haqda xəbərdarlıq etmişdi.

Yunis Səfərov və Tale Bağırzadənin adları ətrafında göstərilən yeni canfəşanlıqlar, kampaniyanın sifarişçilərinin açıq və dolayı şəkildə dövlətə ünvanladıqları təhdidlər Gəncə hadisələri ilə yanaşı, Avropa İttifaqı üçün prioritet enerji layihəsi olan və 3500 kilometrlik Cənub Qaz Dəhlizinin birləşdirici halqasını təşkil edən TANAP-ın ötən il Türkiyənin Əskişəhər şəhərində təşkil olunmuş, prezident İlham Əliyevin şəxsən iştirak etdiyi açılış mərasimindən sonra istifadəyə verilməsinin də, demək olar ki, ildönümünə təsadüf edir.

Bu iki faktı yada salanda, yanyana gətirərək təhlil edəndə Yunis Səfərovun əli ilə Gəncədə, əslində, dövlətə, dövlətin strateji hədəflərinə, milli maraqlarımıza atəş açdırıldığı, onun himayəçilərinin və müdafiəçilərinin isə Azərbaycanı inkişaf edən, güclü, demokratik bir respublika olaraq yox, Suriya, Liviya və digər belə ölkələr kimi terrorun qurbanı olan, anarxiyanın, vətəndaş qarşıdurmasının hökm sürdüyü, yaxud şəriət qanunları ilə idarə olunan dövlət şəklində görmək istədikləri bəlli olur. Onların prezident İlham Əliyevin qətiyyəti və milli maraqlarımızın gerçəkləşməsi uğrunda ardıcıl həyata keçirdiyi çoxşaxəli siyasəti sayəsində hər zaman puç olmuş və olacaq niyyətlərini haradasa başa düşmək olar. Azərbaycanın müstəqilliyini və geopolitik rolunun güclənməsini həzm edə bilmirlər!

Bəs, söz-sözə gələndə özünü "Qərbpərəst" adlandıran müxalif kəsimlər, konkretləşdirsəm, AXCP və Milli Şura nədən Azərbaycan dövlətçiliyinə qarşı aparılan bu çirkin təbliğata nədən bu qədər şövqlə dəstək verirlər?

Hayfa Universitetinin professoru, terror və internet mövzusundakı araşdırmaları ilə tanınan Qabriel Veymann (Gabriel Weimann) və digər tədqiqatçılar vurğulayırlar ki, terror təşkilatları internet üzərindən şiddət təbliğatı aparmaqla gerçəkləşdirdikləri və gerçəkləşdirmək istədikləri aktlara bəraət qazandırmaq, öz əməllərini "çıxış yolu" kimi göstərməklə bir növ legitimləşdirmək, özlərinə tərəfdar toplamaq, terror zehniyyətini yaymaq istəyirlər.

Bəli, Əli Kərimli və çevrəsinin terror, dağıdıcılıq, anarxiya təbliğatındakı iştirakı bu istiqamətdə də elmi-nəzəri biliklərinin azlığından xəbər verməklə bahəm, həm də bir zehniyyət məsələsidir.

Nikkolo Makiavellinin məşhur "məqsəd vasitəyə bəraət qazandırır" prinsipini əsas götürən AXCP və onun marginallamış virini olan Milli Şuranın terrorçudan "qəhrəman" düzəldilməsi kampaniyasına dəstək verməsi, qanlı Gəncə hadisələrinə görə həbs olunanları "məsum insanlar" kimi təqdim etmələri, "Hüseyniyyun", "Müsəlman Birliyi" kimi qruplaşmaları qınamaq yerinə, onları müdafiə edən bəyanatlar vermələri, həmin şəxsləri "vicdan məhbusu" siyahılarına salmaları məhz bu zehniyyətin göstəriciləridir.

Fuad Qəhrəmanlının timsalında sədr müavinlərindən biri radikal "Hizbullah" təşkilatının şüarlarını təkrarlayan AXCP-nin Azərbaycanda "demokratiya" və "insan haqları" adı altında apardığı "mübarizə" öz anti-milli fəaliyyətlərini pərdələməkdən başqa bir şey deyil. Göbəyi Azərbaycandan kənarda kəsilmiş Milli Şura yeni maliyyə imkanları əldə etmək üçün istənilən xarici qüvvənin maşasına çevrilməyə də, ölkəmizin Suriyaya döndərilməsinə də hər cür dəstək verməyə hazırdır.

Ancaq elə "hazır" vəziyyətdə də qalacaqlar ona görə ki, Azərbaycan prezidenti İlham Əliyev, onun siyasi komandası və ictimai dəstəkçiləri xidmət və tərəqqi amalının daşıyıcılarıdır.

Başqa sözlə, Suriya zehniyyətinin Azərbaycan zehniyyətinə qalib gəlməsi mümkünsüzdür!

# XİN: "Ermənistanın məqsədi tədbirdən yayınmaqdır"

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva UNESKO-nun Bakıda keçirilən Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında bəzi iştirakçılara Azərbaycan tərəfindən təhlükəsizlik zəmanətinin təmin edilməməsinə dair KİV-in sualını cavablandırıb.

Leyla Abdullayeva hazırkı sessiyanın təşkil edilməsi ərəfəsində ev sahibi qismində Azərbaycan və UNESKO arasında müvafiq saziş imzalandığını bildirib. O deyib ki, qeyd olunan sazişdə hər hansı istisna olmadan tədbirin bütün iştirakçılarının təhlükəsizlik zəmanəti ilə təmin edilməsi də daxil olmaqla, müvafiq təşkilati məsələlər öz əksini tapıb. Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək niyyətində olan və Azərbaycan tərəfindən müvafiq təhlükəsizlik zəmanətini əldə edən UNESKO-nun bütün iştirakçı dövlətləri tədbirdə iştirakları təmin edilər.

Ermənistan tərəfinin öz nümayəndələri üçün əlavə təhlükəsizlik zəmanəti tələb etməsi cəhdlərinə gəldikdə isə bu, Azərbay-



can tərəfindən yüksək səviyyədə təşkil edilən növbəti beynəlxalq tədbirdə iştirakdan yayınmaq məqsədilə bu ölkənin siyasi qərarından başqa bir şey deyil. Əgər Ermənistan XİN-i hələ də Ümumdünya İrs Komitəsinin sessiyasının keçirilməsinin texniki qaydа və prosedurları barədə məlumatlı deyilsə, o zaman onların bu kimi tədbirlərin bütün iştirakçılarına ümumi və universal zəmanətlərin verildiyi və ölkələrə ayrılıqda xüsusi qeyd-şərtlərin tətbiq edilmədiyini öyrənmək məqsədilə UNESKO Katibliyinə müraciət etmələri yaxşı olardı.

# Milli Məclis: "Bəzi KİV-lərdə yanlış xəbərlər yayılıb"



Son günlər bəzi Kütləvi İnformasiya Vasitələrində Milli Məclisin iyul ayında təcili növbədənkənar sessiyasının çağırılması ilə bağlı yanlış xəbər yayılıb. SİA-ya Milli Məclisin mətbuat xidmətindən bildirilib ki, hər il yaz sessiyası bitdikdən sonra Milli Məclisin qanunverici işlər planında olan və qanunverici təşəbbüsü subyektləri tərəfindən təqdim edilən qanun layihələrinin müzakirəsi üçün yay aylarında növbədənkənar sessiya çağırılır. Həmin növbədənkənar sessiya maksimum iyul ayının 15-dək - Milli Məclisin tətilə çıxdığı müddətədək davam oluna bilər. Bu il də hər il olduğu kimi Milli Məclisin növbədənkənar sessiyası çağırılmışdır. Həmin sessiyanın iclaslarının gündəliyinə daxil olan qanun layihələri üç oxunuşdan keçməlidir.

Azərbaycan respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi iqtisadi, sosial və digər sahələrdəki islahatların qanunvericilik baxımından təmin edilməsi üçün Milli Məclisin növbədənkənar sessiyasında artıq üç iclas keçirilmişdir. Həmin məsələləri tamamlamaq üçün iyul ayındakı iclaslarda qanun layihələri ikinci və üçüncü oxunuşdan keçiriləcək. Növbədənkənar sessiyanın növbəti iclaslarının iyulun 9-da və 12-də keçirilməsi nəzərdə tutulur. Xüsusi ilə qeyd etmək lazımdır ki, nə Azərbaycan Respublikasının Konstitusiyasında, nə də ki, Milli Məclisin Daxili Nizamnaməsində "təcili" və yaxud "fövqəladə" sessiyaların keçirilməsi nəzərdə tutulmamışdır. Milli Məclis həmişə olduğu kimi normal iş qaydasında fəaliyyət göstərir. Milli Məclisin iyul ayının 15-dək keçiriləcək iclaslarında qeyri-adi bir şey axtarmağın heç bir əsası yoxdur.

Milli Məclisin Mətbuat xidməti bir daha bəzi Kütləvi İnformasiya Vasitələrinə müraciət edir ki, əsası olmayan, yoxlanılmamış məlumatlarla ictimaiyyəti yayındırmasınlar.

# “Rusiya-Gürcüstan münasibətləri gərginləşir”



***“Rusiya-Gürcüstan münasibətləri gərginləşir. Rusiyalı deputatın Gürcüstan parlamentinin sədrinin kreslosunda oturması Gürcüstan müxalifətinin və cəmiyyətinin bir hissəsində narazılıq doğurdu”. Bunu SİA-ya açıqlamasında politoloq Elxan Şahinoğlu deyib.***

Politoloqun sözlərinə görə, Rusiyada hesab edirlər ki, baş verənlərin arxasında ABŞ və Ukrayna dayanır: “Yəni guya həm ABŞ, həm də Ukrayna Gürcüstan-Rusiya münasibətlərinin gərginləşməsini istəyir. Rusiyada Ukraynanın adını ona görə çəkirlər ki, Tiflisdəki mitinq və küçə yürüşlərində Ukraynanın bayrağı dalğalanır. Digər tərəfdən Kremldə hesab edirlər ki, Ukrayna Rusiya ilə qarşıdurmada tək qalmaq istəmir. Həqiqətən hazırda Kreml qonşuları Ukrayna və Gürcüstana qarşı eyni sərt siyasəti aparır. Halbuki, son illər Rusiya Gürcüstanla münasibətlərin nisbətən yumşalması siyasətinə üstünlük verirdi. Yəni Rusiya Gürcüstanla 2008-ci il müharibəsini unutmaq üzrə idi.

Rusiya hakimiyyətinin digər arqumenti odur ki, Rusiya və Gürcüstan diplomatları arasında illərdir İsveçrədə danışıqlar gedir və bu danışıqlarda müsbət nəticələr əldə olunurdu. Məsələn, Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasinin sözlərinə görə, Moskva hətta Gürcüstan vətəndaşlarına tətbiq etdiyi vizanı ortadan qaldırmağa hazırlaşırdı. Ancaq Karasinin sözlərinə görə, Gürcüstandakı son hadisələr danışıqlar prosesinə zərər vurdu.

Əlbəttə, Gürcüstan hakimiyyətini idarə edən oliqarx Bidzina İvanişvili 2008-ci il müharibəsinə, o cümlədən Cənubi Osetiyanın və Abxaziyanın tamamən Rusiyanın nəzarətinə keçməsinə baxmayaraq, Moskva ilə dialoq qurmuşdu. Ancaq Bidzina İvanişvili Rusiya ilə barışmağa tələsmirdi. Çünki, Gürcüstan əhalisinin əsas hissəsi Rusiya ilə yenidən tərəfdaş olmaq ideyasını qəbul etmirdi. Buna görə də İvanişvili xarici siyasətdə rəqibi olduğu keçmiş prezident Mixail Saakaşvilinin NATO və ABŞ-la yaxınlıq siyasətinə üstünlük verirdi. Ancaq İvanişvilinin Saakaşvilinin xarici siyasətindən fərqləri də var idi. Məsələn Mixail Saakaşvili Azərbaycanla əlaqələri strateji müttəfiqlik səviyyəsinə qaldırmışdı. İvanişvilinin nəzarət etdiyi dövlət strukturları isə son zamanlar fəal şəkildə Azərbaycana qarşı ərazi iddiasını irəli sürürdülər.

Gürcüstanı cəzalandırmaq üçün Rusiyanın əlinə yaxşı fürsət düşüb. Moskva baş verənlərdə ABŞ-ın əlinin olduğunu iddia etsə də, əslində, Kreml əlinə düşən fürsətdən istifadə etməyə çalışır. Rusiya Gürcüstanın NATO-ya inteqrasiyasından narahatdır. Ona görə də Moskva son hadisələrdən istifadə edərək Gürcüstana qarşı sanksiyaları sərtləşdirib. Məsələn, Kreml Rusiya vətəndaşlarının Gürcüstana getməsini istəmir. Son illər Gürcüstana ən çox Rusiyadan turist gedirdi. Bu, Gürcüstan büdcəsinə illik 500 milyon dollar gəlir gətirirdi. Kreml Gürcüstanı bu qazancdan məhrum etmək istəyir. Kreml Gürcüstan məhsullarının Rusiyaya ixracatını da qadağan etməyi planlaşdırır. Kreml bütün bunları ona görə edir ki, Gürcüstan hakimiyyəti xarici siyasətini dəyişsin.

Baş verən hadisələrdən Gürcüstan müxalifəti də istifadə etməyə çalışır. 2020-ci ildə Gürcüstanda parlament seçkiləri keçiriləcək. Ona görə də müxalifət baş verən hadisədən hakimiyyəti zəiflətmək üçün istifadə etməyə çalışır.

Son hadisələr Gürcüstan hakimiyyətinin Azərbaycanla bağlı siyasətini də korrektəyə məcbur etməlidir. Rusiya ilə münasibətlər gərginləşməyənə qədər Gürcüstan hakimiyyəti Azərbaycana qarşı ərazi iddiasını gündəmdə saxlayır, millətçilərin sərhəddə toplaşmasına şərait yaradırdı. Rəsmi Tiflisin bu siyasəti Azərbaycan hakimiyyətində və cəmiyyətində ciddi suallar doğururdu. Hətta Azərbaycanda “Gürcüstanı strateji tərəfdaş hesab etmək olarmı” sualı aktuallaşmışdı. Son hadisələr Gürcüstan hakimiyyəti üçün “soyuq duş” effekti yaradır. Çünki Gürcüstan hakimiyyəti eyni zamanda iki qonşusu - Rusiya və Azərbaycanla münasibətlərin gərginləşməsinə gedə bilməz. Bu, Gürcüstan üçün həddən artıq böyük risq olar. Azərbaycandan Gürcüstana təhlükə yoxdur, Gürcüstan üçün ən böyük təhlükə Rusiya istiqamətindəndir. Ona görə də sağlam məntiq diqtə edir ki, Gürcüstan hakimiyyəti Rusiya ilə münasibətlərinin gərgin olduğu mərhələdə Azərbaycana qarşı ərazi iddiasından vaz keçməlidir. Əks halda Gürcüstan hakimiyyəti geosiyasi vəziyyətini daha da gərginləşdirəcək”.

***Ceyhun Rasimoğlu***

# “Bu, Paşinyan üçün çox təhlükəli nəticələnə bilər”

*Erməni siyasi texnoloqu Armen Badalyan hakim partiya daxilində baş qaldırmış narazılıqları şərh edib*

***“Ermənistanın hakim “Vətəndaş sazişi” Partiyası daxilində kimin “rəhbərə”, yəni baş nazir Nikol Paşinyana daha yaxın dayanacağı ətrafında qızğın mübarizəyə başlanılıb”. Bu barədə “Sputnik Armeniya” ya müsahibəsində siyasi texnoloq Armen Badalyan deputat Sasun Mikaelyanın bəyanatını şərh edərkən deyib. Belə ki, ötən gün Sasun Mikaelyan öz komandasını “məxməri inqilab” ideyaları və prinsiplərinə söykənməyə çağırıb və onun nəzərincə, əks halda, “məxməri uzaqlaşdırılma” baş verə bilər.***



Qeyd edək ki, Mikaelyan daha əvvəl hakim partiyanın Abovyan şəhərinin merliyinə namizəd irəli sürməsinə qarşı çıxıb. Nəticədə, hakim partiya tərəfindən irəli sürülən namizəd iyunun 9-da keçirilən şəhər merliyi seçkilərində uduzub.

Badalyanın fikrincə, “məxməri inqilab” kriminal-oliqarx sistemini dəyişib, lakin alternativ olaraq, bir nəfərin hakimiyyətini təklif edib.

“Paşinyanın özü isə, “Vətəndaş sazişi”nin bu yaxınlarda keçirilən qurultayında deyib ki, əvvəlki hakimiyyətin epoxasına son qoyulub, partiyanın isə konkret olaraq belə bir ideologiyası yoxdur” deyə erməni siyasi texnoloqu xatırladıb.

Badalyanın sözlərinə görə, əslində, “Vətəndaş sazişi” Partiyasında əvvəlki hakimiyyətin epoxa çalarları var, sadəcə, həmin ideologiya dəqiq şəkildə formalaşdırılmayıb: “Hazırda partiyada baş nazir faktı sementləşdirilib və onun ətrafına bütün komanda yığılıb. İndi isə, həmin komandanın daxilində kimin ona daha yaxın olması uğrunda mübarizəyə başlanılıb. Kim administrativ və s. məsələlər ətrafında baş nazirə yaxın olacaq, bu, şəhər meri kreslosu, qubernator vəzifəsi, universitet rektoru və s. və i. ola bilər”.

Məhz bu mənada, Badalyan Sasun Mikaelyanın narazılığını şərh edib və bildirib ki, Mikaelyan komanda daxilində baş qaldırmış qarşıdurmaları nəzərdə tutub. Erməni siyasi texnoloqu partiyadaxili qarşıdurmaların artacağı proqnozunu verib: “Paşinyan nə qədər çalışsa da ki, partiya daxilindəki bu qanadları kəssin, buna nail ola bilməyəcək, həmin qanadlar həmişə olacaq”.

Erməni eksperti, onu da istisna etmir ki, Paşinyan partiya daxilində qarşıdurmalar yaradanları hakim komandadan uzaqlaşdıra da bilər: “Lakin bu adamların hamısından Paşinyan qurtula bilməyəcək”.

Badalyan, bunu belə izah edib ki, məsələn, Sasun Mikaelyanı götürərsə, o, Kotayk vilayətində kifayət qədər ciddi təsirlərə malikdir və hərbiləşdirilmiş “Yerkrap” könüllülər ittifaqına rəhbərlik edir. Parlament seçkilərində isə, majoritar siyahısına görə, Mikaelyan hakimiyyətin digər namizədlərindən daha çox - 31 min səs toplamışdı.

“Mikaelyanın, bu qədər təsirlərə və resurslara malik olmasına rəğmən, kənara itələmək baş nazir üçün çox təhlükəli nəticələnə bilər” deyə Badalyan bildirib.

***RÖVŞƏN***

# Sosial şəbəkələrdə Paşinyanın NATO-nun baş katibinə saxta məktubu yayılıb

Ermənistanın xüsusi xidmət orqanları baş nazir Nikol Paşinyanın sosial şəbəkələrdə yayılmış saxta məktubunun müəllifini axtarırlar. NATO-nun baş katibi Yens Stoltenbergə ünvanlanmış məktubda Ermənistan hökumətinin başçısı guya Şimali Atlantika Alyansı ilə daha sıx əməkdaşlığa hazır olduğunu və Dağlıq Qarabağ münaqişəsinin bunun qarşısında ən böyük əngəl təşkil etdiyini bildirir. O, bu kontekstdə guya ilin sonunadək “erməni qoşunlarını Dağlıq Qarabağdan çıxaracağını” vəd edib.



THE PRIME MINISTER OF THE REPUBLIC OF ARMENIA

13 May 2019

H E Mr Jens Stoltenberg
Secretary General
North Atlantic Treaty Organization

Dear Mr. Stoltenberg,

I consider it necessary to express my sincere appreciation to you for your participation in the life of Armenia and support in resolution of troubles that prevent extending of cooperation with NATO. Understanding your deep concern with the role Armenia plays for security in the region, I am in a hurry to inform you that the agreements we reached earlier, the reliability of which you confirmed during a personal meeting in January of this year, are close to be implemented by us. The main obstacle to the rapprochement of Armenia with NATO – the presence of Armenian troops on the territories disputed with Azerbaijan – is to be eliminated within a year. In the framework of the plan on withdrawal of the Armenian troops from the conflict zone and transfer of control over the disputed territories to Azerbaijan, a question on desirability of further support of Nagorno-Karabakh by Yerevan will be submitted to a national referendum. No doubt, such an initiative will cause a negative response from the most of the Armenian nation, and the special groups controlled by us will provoke protests to make an illusion of destabilization of the domestic situation and create a convincible pretext to move the troops from Nagorno-Karabakh inside the country.

In turn, I ask you for assistance to be sure Azerbaijan secures the commitments under which its control will be re-established exactly over 50 percent of Nagorno-Karabakh. Wherein I affirm the leadership of Armenia agrees the rest of Nagorno-Karabakh will be a neutral gray area with a possibility of obtaining autonomy. I reckon on you to control Azerbaijani actions setting out prevention of the violation of existing agreements as well.

I hope that mutually beneficial respect of the interests contributes to the development of cooperation between NATO and Armenia, and guarantees peace and stability in the entire South Caucasus region as well.

NIKOL PASHINYAN

AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, saxta məktubda Ermənistan qoşunlarının münaqişə zonasından çıxarılacağı və Dağlıq Qarabağın Azərbaycanın nəzarətin verilləcəyinə dair ümumxalq referendumu keçiriləcəyi barədə fikirlər də yer alıb. Bu feyk məktubu ilk dəfə informasiya təhlükəsizliyi üzrə ekspert Samvel Martirosyan aşkar edib. O, bildirib ki, yüksək ehtimalla məktubun mətni Ermənistanın hüdudlarından kənarda hazırlanıb. Ermənistan milli təhlükəsizlik xidmətinin mətbuat katibi Samson Qalstyan isə bu vəziyyəti şərh etməkdən imtina edib.

Ermənistan Xarici İşlər Nazirliyinin rəsmisi isə məktubun feyk olduğunu təsdiq edib, lakin onu şərh etmək istəməyib. Kibertəhlükəsizlik üzrə ekspert Martirosyan qeyd edib ki, məktub çox savadlı hazırlanıb. Onun sözlərinə görə, hətta Paşinyanın ən qatı düşmənləri belə bu məktubun feyk olduğunu bildiriblər. Paşinyanın mətbuat katibi də bu məsələ ilə bağlı jurnalistlərin suallarını cavablandırmayıb.

# Avropa İttifaqı Şurasının yeni prezidenti seçilib

Avropa Komissiyasının yeni sədri Almaniyanın keçmiş müdafiə naziri Ursula fon der Lyayen olacaq. Sonradan Avropa İttifaqı Şurasının prezidenti vəzifəsinə namizəd də müəyyən edilib.



SİA xəbər verir ki, Aİ üzvü olan ölkələrin dövlət və hökumət başçılarının sammitində Avropa İttifaqı Şurasının növbəti prezidenti vəzifəsinə Belçikanın Baş naziri Şarl Mişelin namizədliyi barədə razılıq əldə edilib. Şarl Mişel bu vəzifədə Donald Tusku əvəz edəcək. Tusk “Twitter” şəbəkəsindəki mikrobloqunda yazır: “Avropa Şurası Avropa İttifaqı Şurasının yeni prezidenti vəzifəsinə Şarl Mişeli seçib”.

# ATƏT-in Minsk Qrupunun həmsədrləri yenə gəlirlər

***ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona növbəti səfəri planlaşdırılır. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ABŞ görüşündən sonra, bu səfərin Dağlıq Qarabağ münaqişəsinin həllinə hansısa bir təsiri olacağı ümidi varmı?***

**Politoloq Qabil Hüseynli: "Gec-tez Ermənistan işğal etdiyi torpaqları azad etməyə məcbur olacaq"**

- Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində erməni tərəfinin mövqeyi, həmsədrlərin bu məsələyə biganə seyrçi münasibəti və həmsədr dövlətlərinin isə Ermənistana hər hansı bir ciddi təzyiqləri göstərməməsi, xüsusilə, BMT-nin bu məsələyə diqqət ayırmaması ikili standartlardan, erməni maraqlarından çıxış etmək deməkdir. Bununla yanaşı, ATƏT-in Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinə müəyyən dinamizm verən qüvvədir. Yəni tərəfləri görüşdürür, danışıqlarda təkliflər irəli sürür. Təkliflər beynəlxalq hüquq prinsiplərinə uyğun olmasa da, hər halda, danışıqlar prosesinin hərəkətdə olduğunu diqqətə gətirir. Ermənistan tərəfi elə bilir ki,



danışıqlar prosesini uzatmaqla vaxt udur. Amma Azərbaycan tərəfi buna seyrçi qala bilməz. Ordumuz nəhayətdə hərəkətə keçib, işğal altında olan torpaqlarımızı azad edəcək. Dünyada da gedən proseslər, xüsusilə, Rusiya-ABŞ gərginliyi və Rusiyanın digər dövlətlərlə olan gərginlikləri Rusiyanın mövqeyini zəiflədir. Rusiyanın mövqeyinin zəifləməsi də Azərbaycanın Ermənistan üzərində qələbəsi deməkdir. Onsuz da, gec-tez Ermənistan işğal etdiyi torpaqları azad etməyə məcbur qalacaqdır. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətinə gəlincə isə, ümid edirəm ki, həmsədrlərin münaqişənin həlli istiqamətində fəaliyyətinin daha kəskin və daha prinsipial olmasını arzu edirik.



**Politoloq Elşən Manafov: "Danışıqları, sadəcə, danışıqlar naminə aparmaq fikrində deyilik"**

- Düşünürəm ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona növbəti səfərləri tərəflər arasında indiyə qədər əldə edilmiş razılıqların və öhdəliklərin gözlənilməsi baxımından əhəmiyyətlidir. Nəzərə almaq lazımdır ki, məhz bu danışıqların aparılması tərəfləri əldə edilmiş razılıqlara əməl etməyə sövq edir. Düzdür, bütün hallarda, Ermənistanın qeyri-konstruktiv mövqeyi Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların gedişində ciddi bir təsir göstərmir. Amma danışıqların intensiv aparılması, effektiv nəticələr verə bilər. Bir sözlə, bu danışıqların davam etdirilməsində ciddi əhəmiyyət var. Azərbaycan tərəfi dəfələrlə, həmsədrlərin də nəzərinə çatdırıb ki, biz danışıqları, sadəcə, danışıqlar naminə aparmaq fikrində deyilik. Ümumiyyətlə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona olan səfəri növbəti səfər kimi qiymətləndirilməlidir. Amma intensiv danışıqların aparılması baxımından, bu danışıqların aparılması zəruridir. Azərbaycan tərəfi bir daha bu danışıqlar vasitəsi ilə həm ATƏT-ə, həm də beynəlxalq ictimaiyyətə mesajlarını göndərir ki, biz, baxmayaraq ki, güclü tərəfik, amma beynəlxalq hüquq normalarına hörmətlə yanaşırıq və bundan sonra da problemin, məhz danışıqlar yolu ilə həllində maraqlı tərəf kimi masa arxasında oturub, Ermənistanla danışıqlar aparmağa hazırıq.

***GÜLYANƏ***

# "Azərbaycan UNESKO ilə sıx əməkdaşlıq edir"

"UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sesiyasının Bakıda keçirilməsi və ölkəmizə çoxlu qonaqların gəlməsi ölkəmizə beynəlxalq səviyyədə olan inam və etibarın göstəricisidir". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.



Deputatın sözlərinə görə, Azərbaycan bir çox beynəlxalq tədbirlərin mərkəzinə çevrilib: "Məhz Bakıda qəbul olunan qərarlar dünyada baş verən humanitar problemlərin aradan qaldırılmasına, multikulturalizmin dünyada təbliğinə, mədəni və milli irs nümunələrinin qorunması üçün əhatə dairəsinin genişlənməsinə töhfə verir. Azərbaycan UNESKO ilə sıx əməkdaşlıq edir və Birinci vitse prezident UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu istiqamətdə xidmətləri daha böyükdür. Mehriban xanımın fəaliyyətində tarixi abidələrin bərpa edilməsi, milli mənəvi dəyərlərimizin dünyaya çatdırılması və ümumiyyətlə Azərbaycanın dünyada tanıdılmasında və UNESKO ailəsinə yaxından daxil olunmasında daha aydın görünür".

# Rusiya səfiri ermənilərin cavabını verdi: "Yaxşı eləmişəm!"

"Mən Rusiya tərəfindən deyilən fikirlərlə razıyam və Ermənistan respublikasının ikinci prezidenti ilə görüşməyimlə pis hərəkət etməmişəm". SİA xəbər verir ki, bu barədə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin armlur.am saytına Robert Koçaryanla görüşünü şərh edərkən deyib. Ermənistanın hakim dairələrinin narazılığının və etirazının əsassız olduğunu bildirən rus səfir deyib: "Ermənistanda bunu yaxşı qəbul etmədilər, Rusiyada isə hesab edirlər ki, burada pis heç nə yoxdur".



Kopırkin əlavə edib ki, onun nəzərincə səfirin vəzifəsidir ki, siyasi, ictimai və dövlət xadimləri ilə görüşsün. Robert Koçaryanın cinayət işi üzrə ittiham olunması məsələsinə gəlincə, səfir deyib ki, o artıq bu məsələni şərh edib və yenidən həmin mövzuya qayıtmaq fikri yoxdur.

Xatırladaq ki, Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin ölkənin ikinci prezidenti Robert Koçaryanla iyunun 13-də görüşüb və həmin görüş Rusiya səfirliyinin rəsmi saytında işıqlandırılıb. Ermənistanın mövcud Nikol Paşinyan hökuməti isə həmin görüşü pisləyən bəyanatlarla çıxış edib, Rusiya tərəfini ittiham ediblər.

# Qarşıdurmalar Ermənistanı cənginə alıb

Ermənistanda Baş Prokurorluq və İstintaq Komitəsi arasında yeni bir qarşıdurma yaranıb. SİA xəbər verir ki, bu barədə "Joxovurd" qəzeti yazır.



Qəzet yazır ki, İstintaq Komitəsinin sədri Ayk Qriqoryan müstəntiqlərinin sərbəst qərar qəbul etmələrini, müstəqilliyini dəstəkləyir və bu da baş prokuror Artur Davtyanın müstəntiqlərə qarşı ciddi addım ata bilməyəcəyi səbəbdən heç xoşuna gəlmir. Bu vəziyyətdən çıxmaq üçün Baş Prokuror mübarizə başlatmaq və bu sahədə qanunvericiliyin imkanlarından faydalanmaq, istifadə etmək qərarına gəlib.

Xüsusilə, Baş Prokurorluq qanunvericilikdə dəyişikliklər etmək və prokurorun ərizəsi əsasında müstəntiqə qarşı intizam icraatının başlanması qaydaları təklifi ilə çıxış edir. Məsələ burasındadır ki, müstəntiqə qarşı intizam icraatının təşviq edilməsinə dair ərizələrin verilməsi yalnız Tədqiqat Komitəsinin intizam komissiyası tərəfindən verilir və bir çox hallarda prokurorluğun ərizələri icbari icraata əsas vermir.

Nəşrin mənbiri bununla əlaqədar, prokurorların müstəntiqləri tabe etmək məqsədilə mümkün olan hər şeyi etdikləri barədə İstintaq Komitəsinin sədri Ayk Qriqoryanın fikirlərini öyrənmək üçün onun söhbət edib.

"İnanıram ki, bunun üçün ehtiyac yoxdur və bir qayda olaraq, bir idarənin başqa bir şöbənin işçisinə qarşı intizam icraatı başlatması üçün ərizə vermək hüququ yoxdur", - deyə Tədqiqat Komitəsinin rəhbəri bildirib. Qəzet yazır ki, Baş Prokurorun təklifi İstintaq Komitəsi üçün qəbul edilə bilməz, lakin "əsrlər boyu" bu idarələrarası qarşıdurmaların necə başa çatacağı maraqlıdır.

***İnam Hacıyev***

## Ermənilər öz uydurma və yalanlarını etiraf edirlər

Taron Marqaryan İrəvanda yaşayıb, yaşayır və yaşayacaq. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri İrəvanın sabiq bələdiyyə başçısı Taron Margaryanın keçmiş mətbuat katibi Artur Gevorkyan, Facebook səhifəsində Marqaryanın Rusiyaya köçürülmüş olduğu məlumatlarına münasibət bildirərkən yazıb. "Yalan məlumatları özündən uyduran və yayanlardan fərqli olaraq, Taron Margaryan kiminsə xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq, İrəvanda yaşayıb, yaşayır və yaşayacaq. Özünüzün arzuladıqlarınızı reallıq kimi təqdim etmək istiqamətində uğursuz cəhdlərinizi, uydurma və yalanlarınızı yığışdırın", deyə Artur Gevorkyan bildirib.



# Azərbaycan turizmi dünya turizm məkan ilə açıq rəqabətə hazırdır




*Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə yönələn strategiyanın mühüm istiqamətlərindən biri də turizmin inkişafıdır. Bu, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların nəticəsidir. Azərbaycanın əksər regionlarında turizmin müxtəlif növlərini, o cümlədən biznes, istirahət, sağlamlıq və idman turizmini inkişaf etdirmək üçün hər cür imkan var.*



Son illər ərzində, Azərbaycanın dünyada tanıdılması istiqamətində də çox böyük işlər görülüb. Beynəlxalq təbirlərin keçirilməsi Azərbaycana turist axınında diqqəti çəkən artımın müşahidə olunmasına gətirib çıxarıb. Məlumdur ki, təkcə "Formula-1" yarışların zamanı Bakının gözəlliyi 500 milyon insana təqdim edilib. Bütün bunlar turizmin Azərbaycanda dövlət siyasətinin üstün istiqamətlərindən birinə çevrildiyinə və ölkənin iqtisadi inkişafına böyük perspektivlər açdığına dəlalət edir.

Əsrlər boyu Avropa və Yaxın Şərq arasında qapı funksiyasını yerinə yetirən Azərbaycanın şimal-şərq hissəsində Böyük Qafqaz dağlarının kölgəsində görülməmiş gözəlliklər gizlənir. Qədim buzlaqlar, dərin dərələr, heyrətamiz dağ gölləri, bitki və heyvan aləminin ekoloji xəzinəsi buradadır. Bu məkanlarda yaradılan şərait bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Azərbaycana səfər edə bilərlər. Yay mövsümündə minlərlə qonağı qarşılayan Azərbaycan qışda da turistlər üçün ən gözəl istirahət mərkəzinə çevrilib.

Turistlərin ölkəmizə səfəri üçün artıq sadələşdirilmiş viza rejimi təqdim edilir. "ASAN VİZA" sistemi vasitəsilə 3 gün müddətində elektron qaydada vizaların əldə olunması, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, turistlərin rahat və təhlükəsiz səfərlərinin təşkil olunması qeyd olunan normativ-hüquqi bazanın yenilənməsinin məntiqi nəticəsidir.

**2019-CU İLİN YANVAR-MAY AYLARINDA AZƏRBAYCANA GƏLƏN XARİCİ SƏYAHƏTÇİLƏRİN ÜMUMİ SAYI 2018-Cİ İLİN EYNİ DÖVRÜNƏ NİSBƏTDƏ 4% ARTIB**

Belə imkanlara malik Azərbaycanda turistlərin səfəri üçün əlverişli məkanın olması ilə yanaşı, tam rahatlığının təmini istiqamətində də böyük işlər həyata keçirilib. Görülən işlərin nəticəsidir ki, may ayında Qərbi Avropadan gələn əcnəbilərin sayı 2 dəfə artıb. Belə ki, 2019-cu ilin may ayı Azərbaycanda turizmin ən uğurlu aylarından biri hesab oluna bilər. May ayı üzrə, demək olar ki, bütün ölkələr və bölgələr üzrə səyahətçi sayının artması müşahidə olunub. Belə ki, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycanı 18% və ya 246 mindən çox xarici vətəndaş ziyarət edib.

Bu artımın ən böyük hissəsi Rusiya (11 min), Gürcüstan (10 min) və Qərbi Avropa (8,9 min) ölkələrinin payına düşür. Qərbi Avropa regionu 102% göstərici ilə Azərbaycanın turizm statistikasında daim öndə olan digər ölkələri, xeyli dərəcədə geridə qoyaraq, 2 dəfə artıb. Bu göstərici böyük ehtimalla mayın 29-da UEFA Avropa Liqasının final oyununu izləməyə gəlmiş futbolsevərlərin Bakıya axınının nəticəsində baş verib. Mərkəzi Asiya ölkələrindən gələnlərin sayında 58% və ya 4 min nəfər qeydə alınaraq, əhəmiyyətli dərəcədə artım müşahidə olunub.

Yekun olaraq, 2019-cu ilin yanvar-may aylarında Azərbaycana gələn xarici səyahətçilərin ümumi sayı 2018-ci ilin eyni dövrünə nisbətdə 4% artıb. Əminliklə deyə bilərik ki, Azərbaycan iqtisadiyyatının strateji istiqaməti sayılan turizm dünya turizm məkan ilə açıq rəqabətə hazırdır. Azərbaycanın ən məşhur brend şəbəkəli mehmanxanalarının Azərbaycanda olmasının nəticəsidir ki, dünyanın ən çox sayılıb-seçilən hotelləri ilə müqayisədə diqqətçəkəndir. Ölkəmizdə turizmin inkişafı üçün lazım olan bütün infrastruktur yaradılıb. Dövlətimizin başçısının səyləri nəticəsində, Azərbaycan dünyanın cəlbedici turizm ölkələrindən birinə çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Respublikada bu günədək 796,2 min hektardan çox sahədə taxıl biçini aparılıb




Respublika ərazisində taxıl biçini davam edir. Bu il Azərbaycan ərazisində 1 milyon 9 min 139,8 hektar sahədə taxıl əkini aparılıb. Bunlardan 677 min 793 hektarı buğda, 331 min 346,8 hektarı isə arpa sahəsidir. Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, iyulun 2-nə olan operativ məlumata görə, ölkə ərazisində 796 min 214,6 hektar ərazidə taxıl biçini aparılıb, 319 min 897 hektar ərazidə arpa, 476 min 317,5 hektar ərazidə isə buğda biçini başa çatıb.

Ümumilikdə, bu günədək ölkə üzrə 2 milyon 557 min 174,6 ton taxıl yığılıb, orta məhsuldarlıq hər hektara 32,1 sentner təşkil edir.

Ağdam, Bərdə, Biləsuvar, İmişli, Masallı, Saatlı, Sabirabad, Salyan, Yevlax, Zərdab və Ucarda taxıl biçini başa çatıb. Ağdaş, Kürdəmir, Tərtər, Neftçala və Füzuli rayonlarında taxıl biçini başa çatmaq üzrədir. Ağcabədi ərazisində arpa əkilmiş 6672 hektar sahənin 6666 hektarı artıq biçilib, buğda əkilmiş 22 min 503 hektar sahənin 22 min 218 hektarı artıq biçilib. Rayonda arpa üzrə məhsuldarlıq 32,7 s/ha, buğda üzrə məhsuldarlıq 35,6 s/ha təşkil edir.

Oğuz rayonu ərazisində arpa əkilmiş 4118 hektar sahənin 4100 hektarı artıq biçilib, buğda əkilmiş 11 min 969 hektar sahənin 10 min 700 hektarı artıq biçilib. Rayonda arpa üzrə məhsuldarlıq 30,8 s/ha, buğda üzrə məhsuldarlıq 31 s/ha təşkil edir. Ağdaş, Beyləqan, Neftçala və Tərtər rayonlarında da taxıl biçinində yüksək nəticələr əldə edilib.

## BMT: "2020-ci ildə 1,4 milyon qaçqının köçürülməyə ehtiyacı olacaq"



BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığının hesabatında bildirilir ki, 2020-ci ildə hazırda 60 ölkədə yerləşmiş1,4 milyon qaçqının köçürülməsinə ehtiyac yaranacaq. Bu səbəbdən ailələrindən ayrı düşmüş həmin insanlara kömək etmək üçün dünya ölkələrinə müraciət olunub. BMT-nin rəsmi saytında yer alan məlumatda deyilir ki, köçürülməyə möhtac olan qaçqınların 70 faizi zorakılıq və işgəncə halları ilə üzləşib. Onların 40 faizi Suriya, 14 faizi Cənubi Sudan və 11 faizi Konqo Demokratik Respublikası vətəndaşlarıdır. Bundan başqa, Türkiyə ərazisində məskunlaşmış 3,7 milyon qaçqının da 420 mini ailələri ilə birləşmək üçün köçürülməyə möhtacdır.

Hesabatda qeyd olunur ki, qaçqınların yerləşdirilməsi məsələsi getdikcə daha da kəskinləşir. Belə ki, bütün dünya üzrə 70,8 milyon insan öz evlərini tərk etməyə məcbur olub. Onlardan təqribən 26 milyonu isə qaçqınlardır.

## Elektron dərslik portalına giriş sayı 1 milyonu keçib



2019-cu ilin birinci yarısında Təhsil Nazirliyi tərəfindən hazırlanmış elektron dərslik portalına (www.e-derslik.edu.az) giriş sayı ötən illə müqayisədə iki dəfə artıb. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, ötən ilin ilk yarım ilində portala giriş sayı 673 min 240, səhifələrə ümumi baxış sayı 4 milyon 849 min 258 olubsa, cari ilin ilk altı ayında portala giriş sayı 1 milyon 199 min 651, səhifələrə ümumi baxış sayı isə 9 milyon 584 min 492 təşkil edib.

## Bakıda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2 milyard manatı ötüb




Yanvar-may aylarında paytaxtda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri keçən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,9 faiz artaraq 2 milyard 66,5 milyon manat olub. Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata görə, hesabat dövründə hüquqi şəxslər tərəfindən əhaliyə 1 milyard 490,6 milyon manatlıq xidmət göstərilib, bu da xidmətlərin ümumi dəyərinin 72,1 faizini təşkil edib.

# YAP İmişli rayon təşkilatı 26 ildə uğurlu yol keçib





Dünən Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatının yaranmasının 26 illik yubileyi qeyd olunub.

Tədbiri giriş sözü ilə açan YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev bildirib ki, 1992-ci il noyabr ayının 21-də Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası təsis edildikdən sonra, qısa bir zamanda, respublikanın bütün ərazilərində partiyanın yerli təşkilatları yarandı və Ulu Öndər Heydər Əliyevə sədaqətli olan, Onun ideyalarını dəstəkləyənlər partiya sıralarına daxil oldular: “1993-cü ildə İmişli rayonunda da Yeni Azərbaycan Partiyasının rayon təşkilatı təsis edildi. Rayonumuzda o dövrün ən yaxşı ziyalıları, zəhmət adamları rayon təşkilatının yaradılmasını alqışladılar və partiya sıralarına daxil oldular. YAP İmişli rayon təşkilatı 8680 nəfər üzvü özündə birləşdirən 86 ərazi ilk partiya təşkilatından ibarətdir. Partiya üzvlərindən 2891 nəfərini gənclər, 2683 nəfərini qadınlar təşkil edir”.

Şura üzvlərindən Həsən Hüseynov, Şahsuvar Əmrahov, Şakir Məmmədov və digərləri çıxışlarında YAP-ın yaranma zərurətindən danışıblar. Bildiriblər ki, o zaman əgər ölkəmizin düşdüyü ağır iqtisadi-siyasi böhranda YAP yaranmasaydı, bugünkü Azərbaycanın mövcudluğundan, inkişafından və uğurlarından danışmaq olmazdı. Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə atdığı bu addımı bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev layiqincə və modern şəkildə davam etdirir.

Tədbirdə YAP İmişli rayon təşkilatının qadınlar şurasının sədri Validə Zülfiqarova və gənclər birliyinin sədri Rüfət Muradov çıxışlarında YAP-ın yarandığı dövrə, partiyanın rəhbərliyi ilə ölkəmizdə əldə edilən uğurlara, keçirilən seçkilərdə daim qələbələr qazanmasına geniş yer veriblər. Qeyd ediblər ki, təşkilatımız rayon gənclərinin hərtərəfli inkişaf etdirilməsi ilə yanaşı, onların siyasi fəallıqlarının artırılması istiqamətində də müxtəlif təşkilatlarla sıx əlaqə yaratmış və bu sahədə məqsədyönlü işlər aparmışdır.

**RƏFİQƏ HÜSEYNOVA**

# YAP Sabunçu rayon təşkilatının gənclər birliyi orduya dəstək aksiyasına qoşuldu



Dünən Yeni Azərbaycan Partiyasının Sabunçu rayon təşkilatının gənclər birliyinin fəalları rayon təşkilatının qərargahında toplaşaraq, baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədovun çağırışına qoşularaq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməkliyi məqsədi ilə aksiya keçiriblər. Gənclər Müstəqil Azərbaycan Dövlətinin güclü olmasına, xüsusilə də, onun Azərbaycan Ordusunun dünyanın ən güclü orduları arasında olmasına baxmayaraq, Ulu Öndər Heydər Əliyevin 2002-ci il 17 avqust tarixli 755 saylı Fərmanı ilə yaradılmış bu fondun Ordu-Xalq-Ali Baş Komandan vəhdətinin rəmzi olduğunu xüsusi qeyd etmişlər və bu mənada, YAP gəncləri hər zaman bu vəhdətin dəstəklənməsində çox yaxından iştirak etmək istədiklərini bildiriblər.

**R.HÜSEYNOVA**

# YAP Binəqədi rayon təşkilatının gənclər birliyi orduya dəstək aksiyasına qoşulub



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı Baş nazirin müavini, YAP-ın Sədr müavini-İcra Katibi Əli Əhmədovun çağırışına qoşularaq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməkliyi məqsədi ilə aksiya keçiriblər. Aksiya zamanı YAP Binəqədi rayon təşkilatının kollektivi banklara gedərək, Silahlı Qüvvələrə Yardım Fondunun hesabına maddi dəstək göstəriblər.

Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fonduna dəstək aksiyasına YAP Binəqədi rayon təşkilatının ərazi ilk partiya təşkilatları da qoşulub. Bu aksiyaya qoşulmaq Azərbaycanın hər bir vətəndaşını bir olmağa, Silahlı Qüvvələrə dəstək olmağa səsləyir. Ordu xalqın qürur mənbəyi və onun müdafiəsinin təminatçısıdır. Azərbaycan Ordusu öz qüdrəti ilə hər zaman öndədir. Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində açdığı yol Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Silahlı Qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu inkişafa, az da olsa, hər birmizin dəstək olması qüdrətli Azərbaycanın birliyinin göstəricisidir. Unutmayaq, bu dəstək bütün hərbi hissələrin müasir standartlara uyğun qurulmasında, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılmasında, ordumuzun müasir silahlarla təmin edilməsi kimi görülən mühüm işlərdə hər bir Azərbaycanlının dayağı və qayğısı deməkdir. Onlar bizim sabit yaşayışımızın təminatçılarıdır.

**Zümrüd BAYRAMOVA**

# Ukrayna səfiri: “Naxçıvanda turizmin inkişafı üçün mövcud olan təbii şərait məni çox heyrətləndirdi”

***Naxçıvanda gördüklərim belə deməyə əsas verir ki, burada dini, səhiyyə və ekoturizm inkişaf edib və təbii ki, bütün bunlar turistlər üçün ən arzuolunan məqamlardır. Naxçıvanda insan özünü həm xoşbəxt, həm də sağlam hiss edir. Bütün bunlar Naxçıvanın nadir bir diyar olduğunu göstərir.***



Bu fikirləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində muxtar respublikada səfərdə olan Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski deyib. Diplomat səfərinin məqsədi barədə danışaraq deyib: “Bu mənim Naxçıvana ilk səfərimdir. Səfər bu qədim diyar barədə yaddaşımda dərin təəssüratlar yaratdı. Keçirdiyim görüşlər zamanı aydın oldu ki, Naxçıvan Muxtar Respublikası ilə iqtisadiyyat, turizm, mədəniyyət sahələri üzrə geniş əməkdaşlıq etmək üçün böyük potensial imkanlar mövcuddur. Təbii ki, Naxçıvana konkret təkliflərlə gəlmişəm. Bunlardan ən vacibi Ukraynanın perspektivli bir əyaləti ilə Naxçıvan Muxtar Respublikası arasında regionlararası əməkdaşlıq əlaqələri qurmaqdır”.

Muxtar respublikanın istehsal potensialının gələcək əməkdaşlıq üçün geniş imkanlar açdığını qeyd edən diplomat bildirib ki, ilkin mərhələdə rəsmi əlaqələri gücləndirmək, sonra isə konkret layihələri reallaşdırmaq nəzərdə tutulur.

Səfir vurğulayıb ki, Naxçıvanda turizmin inkişafı üçün mövcud olan təbii şərait onu çox heyrətləndirdi. O deyib ki, Duzdağ Fizioterapiya Mərkəzi bənzərsiz görünüşə malikdir: “Bu günədək belə mağaralar görsəm də, Naxçıvandakının tam fərqli xüsusiyyətləri, müasir şəraiti var. Gələcəkdə Naxçıvana gəlməyi və həmin səhiyyə ocağında müalicə almağı da düşünürəm. Mən də öz növbəmdə çalışacağam ki, bütün bu müsbət keyfiyyətləri Vətənimdə olan insanlara aşılayım və onlar da buraya üz tutaraq bu imkanlardan istifadə edə bilsinlər. Vladislav Kanevski Naxçıvanla tanış olmaq üçün yaradılan gözəl şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

# Ermənistan insan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymur

***Ermənistanın Azərbaycana qarşı ərazi iddiası və Qarabağa qarşı olan təcavüzkar siyasəti əsrlərdir ki, davam edir. Qarabağ bütün tarixi dövrlərdə yalnız Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuş, Azərbaycanın tarixinə uyğun inkişaf etmişdir. Ermənistanın Qarabağa ərazi iddiasının tarixi kökləri, onun təcavüzkar mahiyyəti, Ermənistanın Azərbaycana qarşı müharibəsinin işğalçı xarakteri "böyük Ermənistan" yaratmaq xülyasının nəticəsidir. Ermənistanın Azərbaycana qarşı olan uydurma torpaq iddiaları heç bir tarixi mənbəyə söykənmir. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı işğalçılıq müharibəsinin başlanması, Azərbaycan ərazilərinin işğalı prosesi və zəbt olunmuş Azərbaycan torpaqlarında qurulmuş işğalçılıq rejimi nəticəsində dövlətimizə külli miqdarda ziyan dəymişdir.***



Azərbaycanın erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş ərazilərində törədilmiş vandalizm əməllərinin nəticəsi olaraq, evlər talan edilmiş, sökülmüş, yandırılmış, tarixi abidələr, xüsusilə, qəbiristanlıqlar dağıdılmışdır. İşğal olunmuş Azərbaycan rayonlarının talan və qarət edilməsində, o cümlədən, evlərin, abidələrin, qəbiristanlıqlardakı qəbir daşlarının sökülməsində əsir və girovların əməyindən istifadə edilməsi də danılmaz faktdır. Maddi-mədəniyyət nümunələrinin dağıdılması ilə bağlı ciddi dəlil-sübutlar və faktlar mövcuddur ki, bu istiqamətdə də Respublika Hərbi Prokurorluğunda cinayət tərkibli işlərə baxılmışdır. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı, deportasiya, işgəncə və digər epizodlar üzrə aparılmış istintaq hərəkətləri nəticəsində, sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətmiş 239, banditizm, qəsdən adamöldürmə və digər cinayətlər törətmiş 48 nəfər olmaqla, 287 nəfər barəsində təqsirləndirilən şəxs qismində cəlbetmə qərarları çıxarılmışdır. Ermənilərin hiyləgər siyasətinin nəticəsidir ki, Azərbaycan ictimai-siyasi hadisələrin burulğanında öz haqqının müdafiəsində səsini ucaldır və sülməramlı niyyətini reallaşdırır.

Azərbaycan torpaqlarının 20 faizini işğal edən Ermənistan bilərəkdən və sistemli şəkildə beynəlxalq hüququn norma və prinsiplərini pozaraq, mülki insanları, xüsusilə, qadın və uşaqları hədəfə alır. Hərbi təcavüz nəticəsində, insan hüquqları kobudcasına pozulur, etnik təmizləmə siyasəti və terror aktları minlərlə günahsız azərbaycanlının həyatına son qoyur. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edir.

### ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN TÖRƏDİLƏN VANDALİZM

2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən bir daha Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması çirkin siyasətin daha bir nümunəsi oldu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşışında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi.



1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirmələri hələ də davam edir. Bu müddət ərzində, 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı olub. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. Bu faciəli ölüm dünya ictimaiyyəti tərəfindən lənətlənir.

### "TARİXİ HƏQİQƏT DƏ BİZİM MÖVQEYİMİZİ MÖHKƏMLƏNDİRİR"

Qaniçən ermənilər yaşlılara, qadınlara və uşaqlara zərrə qədər belə mərhəmət etmədən, əsl faşist simalarını ortaya qoymuş oldular. Azərbaycanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı haqlı, ədalətli və qətiyyətli mövqeyi dəyişməz olaraq qalır. Ölkəmiz münaqişənin sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında ərazi bütövlüyümüzün tam bərpası çərçivəsində ədalətli həllinə səy göstərir. Lakin Azərbaycanın xoşməramlı səylərinə, rəsmi Yerevanı diplomatik vasitələrlə işğalçılıq siyasətindən çəkindirməyə yönələn addımlara baxmayaraq, münaqişə hələ də həll olunmamış qalır. 25 il atəşkəs rejimində yaşasaq da, Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə hələ də nail ola bilməyib. Bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozulub. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayır, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət vermir. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul edib. Bununla yanaşı, bir çox beynəlxalq təşkilatlar, dünya ölkələri Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyiblər və işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar. AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası səviyyəsində Ermənistanın işğalçılıq siyasətinə kəskin mənfi münasibət bildirilib. Ermənistanın işğalçılıq, anti-Azərbaycan siyasətini davam etdirməsinə baxmayaraq, onun yaşadığı qorxu hissi də danılmazdır. İndi bizim düşməni torpaqlarımızdan çıxarmağa qadir olan ordumuz var, beynəlxalq miqyasda Azərbaycanın haqq mövqeyi dəstəklənir və ən əsası da, insanlarda düşmənə qarşı mübaribəyə hazır olan yekdil əhval-ruhiyyənin olması, onu deməyə əsas verir ki, Qarabağ torpağı düşmən əsarətindən azad ediləcək. Məlum aprel döyüşləri - Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsi tarixi hadisəyə çevrildi. Bu, Azərbaycanın konstruktiv mövqeyi idi, haqqədalətin bərpası idi. "Tarixi həqiqət də bizim mövqeyimizi möhkəmləndirir" deyən Azərbaycan Prezidenti İlham Əliyev hərbi gücün də, iqtisadi potensialın da, siyasi nüfuzun da bizdə olduğunu çıxışlarının birində vurğulayıb: "Yeni biz məsələni istədiyimiz kimi həll edəcəyik. Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağını qaldırmaqdır. Budur bizim məqsədimiz və biz bu məqsədə doğru irəliləyirik. Aprel döyüşləri bu istiqamətdə çox önəmli tarixi addım olmuşdur".

### "AZƏRBAYCAN TORPAQLARININ İŞĞALI İLƏ HEÇ VAXT BARIŞMAYACAQ"

2016-cı ilin aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı. Dövlət başçısının məlum Sərəncamı ilə kənddə böyük quruculuq işlərinə başlandı. Böyük Qayıdışın başlanğıcı olan bu kəndin bərpası ilə bağlı görülən işlər çərçivəsində fərdi yaşayış evləri və infrastrukturun tikintisi ilə yanaşı, 96 şagird yerlik yeni məktəb binası da tikilib istifadəyə verildi.

Görülən işlər və davamlı səylər nəticəsində, ölkəmizin ərazi bütövlüyü yaxın vaxtlarda bərpa ediləcək. 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru kimi tarixə yazıldı. Qızılqaya və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirildi, Dərələyəz mahalının Arpa kəndində və Mehridərə vadisində düşmən fəaliyyəti nəzarət altına götürüldü. Bu, bir daha göstərdi ki, Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, düşmən tapdağı altında olan əzəli torpaqlarımızın azad olunması uğrunda mübarizədən çəkinməyəcəkdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# “VİP”-AMİP savaşına start verildi

Vaxtilə AMİP-də rəhbər posta malik olmuş, 2005-ci ildə isə partiyadaxili qarşıdurmalar üzündən həmin partiyadan səsli-küylü istefa vermiş, hazırda isə “Vətəndaş və İnkişaf Partiyası”na sədrlik edən Əli Əliyevin mətbuat vasitəsi ilə AMİP-in keçmiş sədri, indiki zamanda partiyanın “fəxri sədri” olan Etibar Məmmədovun “bostanına daş atması” tərəflər arasındakı soyuq münasibəti yenidən gərginləşdirib. Sözün düzü, hər iki şəxs, daha doğrusu,partiya rəhbərlikləri arasında 14 ildir ki, hər hansı bir qarşıdurma yaşanmırdı, lakin “VİP” sədrinin, birdən-birə bu qədər aqressiv yanaşma edərək, AMİP-in “fəxri sədrini” hədəfə götürməsi, belə nəticəyə gəlməyə zəmin yaradır ki, Ə.Əliyev gündəmdə qalmaq üçün bu addıma gedib.

### “VİP” sədri Əli Əliyevdən AMİP-in “fəxri sədri” Etibar Məmmədova: “Onun halallığını verməmişəm, verməyəcəm də - publik şəkildə məndən üzr istəməyənə qədər”

Qalmaqallı müsahibəsində “VİP” sədri Ə.Əliyev 2005-ci ildə AMİP-in rəhbəri postundan və qurumun üzvlüyündən çıxarılmasına, bu səbəbdən, həmin ildən etibarən AMİP lideri E.Məmmədovla aralarında yaranan narazılığa toxunub. Belə ki, “VİP” sədri AMİP təmsilçisi E.Məmmədovun bütün “qırmızı xət”ləri keçdiyini bildirərək, nə bu dünyada , nə də o dünyada onu bağışlamayacağını bildirib. Onun etdiklərinin düzgün olmadığını iddia edən Ə.Əliyev, çox maraqlıdır ki, nəyi nəzərdə tutduğunu açıqlamayıb. AMİP liderinin hazırda siyasətdə olmadığını deyən Ə.Əliyev, E.Məmmədov, aktiv siyasətə qayıtdıqdan sonra onunla danışa-



cağını bildirib.

“Həmin şəxslə (Etibar Məmmədovla-red.) uzun bir siyasi yol keçmişəm. Həmin partiyanın üzvlüyündən sədrliyinə qədər yüksəlmişəm. Siyasi mübarizə aparmaq olar. Təbiət etibarı ilə nə yaxşılığı, nə də pisliyi unudan adam deyiləm” deyə qeyd edən “VİP” sədri xatırladıb ki, E.Məmmədov 2005-ci ildəki siyasi mübarizədə “qırmızı xət”lər keçilib: “O şəxs haqqında bu günə qədər mətbuatda danışmamışam. Siyasi mübarizədə, o, “qırmızı xət”ləri keçdi. Onun etdikləri düzgün hərəkətlər deyil. Çünki elə şeylər var ki, onları etmək olmaz. O adam siyasətdə yoxdur və haqqında danışmıram. Siyasətə dönəcəyi təqdirdə, görəcəksiniz ki, nələr danışacam. Onunla haqq-salamımız yoxdur, ola da bilməz. Onun halallığını verməmişəm, verməyəcəm də - publik şəkildə məndən üzr istəməyənə qədər. O adam mənim üçün yoxdur, ələqəm ola bilməz. Mənim də, partiyamın da fəaliyyətinə baxın, onun da, partiyasının da fəaliyyətinə baxın. Bilinmir ki, müxalifətdədirlər, ya yox”.

### AMİP-in katibi Əli Orucovdan VİP sədri Əli Əliyevə: “Nə ağılsızmış səndə olan baş...”

Qeyd edək ki, Ə.Əliyevin müsahibəsi cavabsız qalmayıb və ona dərhal cavabı, məhz AMİP katibi Əli Orucov cavab verib. “Mən “VİP” adlı dərnəyin Əli Əliyevin nədən, durub-durub, AMİP və onun “fəxri lideri” Etibar Məmmədov haqqında başından böyük iddialar və fikirlər səsləndirməsinin budəfəki mənasını anlamadım” deyə qeyd edən Ə.Orucova görə, Ə.Əliyevə kimsə bir söz deməyib və onun birdən-birə belə aqressiv yanaşma meyili anlaşılmazdır: “Adamın adı çəkilməyib, onun ipini tərpədən olmayıb. Görünür, ya gündəmdə qalmaq, ya da özünü kimlərəsə təqdim etmək üçün bu addımı atıb. Açığı, Əli Əliyev bizim üçün yoxdur və onun nə deməyi də maraqlı deyil. Lakin bizim hər dəfə, hər yoldan ötənə baş qoşmamağımız, deyəsən, onu bir qədər də cürətləndirib. Əlinin dünyaları xəyanət və satqınlıqlardan, ikiüzlülükdən və saxtakarlıqdan ibarətdir. Hər nədən danışırsa- danışsın, onun doğruluqdan və dürüstlükdən danışmağa haqqı yoxdur. Nankor birisinin halallıqdan danışması da absurddur. Mən onun sayıqlamalarına hansısa uzun-uzadı cavab verməyi lüzum görmürəm. Əli Əliyevin, hətta Etibar Məmmədovu fəal siyasətə qayıdacağı təqdirdə belə, şantaj etməsi isə çox ironikdir. Bir də məşhur şeirdə deyildiyi kimi: “Nə ağılsızmış səndə olan baş, neylər qartala qarğa atan daş!..”

Beləliklə, onsuz da dava-dalaşlı, ziddiyyətli, parçalanmış və xaotik dərəcədə bir-birlərinə qənim kəsilmiş ənənəvi müxalifət düşərgəsində daha iki siyasi partiya - “VİP” və AMİP arasında da cəbhə açıldı və bütün bunlar, belə qənaətə gəlməyə zəmin yaradır ki, siyasi ictimaiyyət bundan sonra hələ çox bənzər düşərgədaxili savaş cəbhələrinin açılmasının şahidləri olacaqlar.

**Rövşən RƏSULOV**



### Əli Kərimli və Cəmil Həsənli - hər ikisi də heçə dəyməz satqın, əxlaqsız erməni qulbeçələridir

**RƏFİQƏ**

***Azərbaycan uğurlu inkişafa imza atdıqca, satqınların canına birə düşür. Başlayırlar qaşınmağa, qaşınıb-qaşınıb canlarından erməni qanının axdığını görərək, böhtanlara və satqınçılığa əl atırlar. Bir də abırsız adam nə bilir ki, qanı erməni qanıdır, yaxud da it qanı... Bu, o Əli Kərimlidir ki, min dəfə üzünə tüpür, faydası olmayacaq, o qoca “professor da”. İndi deyəcəklər ki, söz deyəndə, təhqir etmək olmaz, tənqid etmək lazımdır. Kimi? Məgər bu parazitlərin dövlətə və xalqa qarşı atdığı böhtanları, Vətəni, milliyyətini, özünün hər şeyini satanların sözlərinə necə susasan? Belə parazitlər yenə də müxalifət mətbuatında böhtanlarından əl çəkmirlər. İstər Müsavat, istər AXCP, istərsə də “Milli Şura” yenə də böhtanlı çıxışını etməyə başlayıb. Bir də neyləsinlər, hara əl atırlar Azərbaycanın uğurlu inkişafını görürlər. Bax, bu yerdə, ona görə deyirəm ki, nəinki üzünüzə, bütün vücudunuza tüpürmək lazımdır. Görünür, ona görə yenidən bələdiyyə seçkiləri ərəfəsi dialoq məsələsini ortaya atırlar.***

Çünki dialoq məsələsilə hər zaman manipulyasiya edən dağıdıcı müxalifət hakimiyyətə qarşı süni şəkildə dəfələrlə təzyiq atmosferi yaratmağa cəhdlər göstərib. Amma ötən ay baş tutan dialoq, bir daha göstərdi ki, Azərbaycanda hakimiyyəti nəinki iqtidar-müxalifət dialoquna qarşı çıxır, hətta ölkədə fəaliyyət göstərən bütün partiyalarla siyasi dialoqa hazır olduğunu açıq şəkildə nümayiş etdirdi.

KXCP sədri Mirmahmud Mirəlioğlu “Milli Şura”nı və AXCP-nin dialoq yox, “şou” keçirmək istədiyini bildirib: “Olmayan şeyləri danışmaq ayıbdır. Mən, sadəcə olaraq, təəssüf edirəm. Mən bunu mediaya açıqlamaq istəmirdim, amma məcbur elədilər, deyirəm. Bu cür görüşlərin olmasının Azərbaycan cəmiyyətinə nə xeyri var? Tənqid edirlər etsinlər, amma insaflı olmaq lazımdır. İnsafı və ədaləti kənara qoymaq olmaz. Bu söhbətdən qaçan qüvvələr yalnız özünə arxayın olmayan, “bulanıq suda balıq tutmaq” istəyən satqınlardır”.

ADP sədri Sərdar Cəlaloğlu “Milli Şura”nın müxalifətçiliyini “İŞİD”-lə, Ukraynada döyüşən üsyançılarla müqayisə edib: “İŞİD” də özünü Suriyada hakimiyyətə qarşı əsas müxalifət elan etmişdi. Ukraynada mərkəzi hakimiyyətə tabesizlik nümayiş etdirib silahlı mübarizə aparanlar da özlərini müxalifət hesab edirlər. İndi gəlin görək, “İŞİD”-in müxalifliyi Suriya dövlətinə və xalqına xeyir gətirdi?! “Milli Şura”nın və AXCP-nin müxalifət olmağı indiyə qədər bu xalqa nə verib?! Bir müsbət nə isə verib?! 20 ildir sən Ə.Kərimli Azərbaycan müxalifətinin önündə getdiyini bəyan edirsən, 20 ildir Azərbaycan müxalifəti uduza-uduza gedir. Sənin müxalifətçiliyin budursa, kimə lazımdır belə müxalifətçilik!? Bu xalq səni 20 ildir görür, alovlu taftalogiyadan ibarət nitq söyləmək xalqa xidmət etmək deyil, qrant tələsidir”.

# Müxalifət müxalifəti etirafları ilə hədəfə alıb

## *Səbəblər bəlli olsa da, həqiqəti eşitmək istəyənlər yoxdur*

Müxalifət düşərgəsinin zəifliyi və düşərgədaxili qarşıdurmalar, artıq elə bir anormal həddə qədər gəlib-çatıb ki, bunu elə müxalifət partiyalarının sədrlərinin özləri də etiraf edirlər. Heç bir siyasi taktikalara, gedişlərə, proqnozlaşdırma qabiliyyətinə malik olmayan müxalifətin, belə bir vəziyyətə düşməsinə daha bir səbəb, istər partiyalararası, istərsə də partiyalardaxili hərc-mərclikləridir. O cümlədən, adi mitinq və aksiyalarını belə dəstəksiz, sosial bazasız keçirib rüsvay olan ənənəvi düşərgənin bu durumdan çıxa bilməməsi, sivil mübarizə üsulunun olmaması və xalqın dəstəyindən məhrumiyyət orada təmsil olunan siyasi təşkilat rəhbərlərini narahat etməyə başlayıb. Bu səbəbdən, əsas günahkarlar elə düşərgənin daxilində axtarılır.

### Fuad Əliyev: “Müxalifətdaxili çəkişmələr, “agent” axtarışı, bir-birinə qısqanclıq və keçmişdən qopa bilməmək müxalifəti zəifledir”

Azərbaycan Liberal Demokrat Partiyasının sədri, parçalanmış “Azərbaycan Xalq Hərəkatı”nın üzvü Fuad Əliyev etiraf edir ki, xalq müxalifəti dəstəkləmir. “Bu da müxalifətin son 15 ildə atdığı səhv addımlara görə baş verib”, deyən ALDP sədri digər nüansa da toxunub. Bu



nüsanslardan biri də düşərgədə kim digərindən narazı qalırsa, dərhal qarşı tərəfi hakimiyyətə işləməkdə günahlandırır. SİTAT: “Müxalifətdaxili çəkişmələr, “agent” axtarışı, bir-birinə qısqanclıq, keçmişdən qopa bilməmək müxalifəti zəifledir, ona inamı itirir. İnsanlar artıq yeni simaları görmədiyinə görə, bəziləri isə, etimadı itirdiklərinə görə, ümumi müxalifətə cəmiyyət dəstək vermir”.

Düzdür, F.Əliyev özünə və digər müxalifətçilərə təskinlik vermək üçün düşərgənin nə zamansa bir araya gələrək, yeni siyasət istiqamətində hərəkət edəcəyini desə də, çox yəqin ki, onun özü də bu fikirlərinə inanmır. Çünki hazırda özünün sədrlik etdiyi partiyası belə, parçalanmış bir müxalifət “birliyində” - “AXH”də təmsil olunur.

### Sərdar Cəlaloğlu: “Azərbaycan müxalifətinin siyasi dünyagörüşü və siyasi fəlsəfəsi yoxdur”

Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu da yuxarıda qeyd edilən məqamlara toxunaraq, partiyasına yaxın mətbu orqana verdiyi müsahibəsində deyib ki, Azərbaycan müxalifətinin siyasi dünyagörüşü yoxdur. Desək, ölkə müxalifətində intellektuallıq cəhətdən insanların olmamasına işarə edən ADP sədri, hesab edir ki, düşərgədə özlərini “lider” adlandıranlar bütün lazım olan siyasi cəhətləri kənara qoyub, yalnız “hakimiyyətə gələcəyik” xəyalları ilə fəaliyyət göstərirlər. Xalq isə, bu cür ucuz təfəkkür sahiblərinə inanmır, bundan sonra da inanmayacaq.

“Onların xalqa təsiri sıfır səviyyəsindədir” deyən S.Cəlaloğlu bildirib ki, siyasət həm də siyasi dünyagörüşüdür: “Bu gün Azərbaycan müxalifətinin siyasi dünyagörüşü və siyasi fəlsəfəsi yoxdur. Buna görə də, ancaq hakimiyyətə gəlmək barədə düşünür”.

Beləliklə, müxalifətin kifayət qədər tanınmış şəxslərinin belə bir etiraflarda bulunmaları, əslində, həqiqəti əks etdirən reallığın tərkib hissəsidir. Ancaq belə etirafların digər müxalifət rəhbərləri, misal üçün AXCP, Müsavat və digər bənzər partiya “liderləri” tərəfindən edilməməsi, artıq özü-özlüyündə ənənəvi, ya da radikallaşmış düşərgənin siyasi ölümünü daha da sürətləndirməkdədir.

**R.NURƏDDİNOĞLU**

# İslam dinində erkən nikah məsələləri

***İslamda nikah əqli, fiziki və psixoloji cəhətdən sağlam olan qadın və kişinin arasında ailə qurmaq məqsədilə qarşılıqlı razılaşma əsasında bağlanan hüquqi aktdır. Bu hüquqi akt nəticəsində ortaya qoyulan hüquqi sənəd tərəflərin qarşılıqlı vəzifə, məsuliyyət və öhdəliklərini müəyyənləşdirir. Qadın dünyaya övlad gətirməklə, öz əsas vəzifəsini yerinə yetirir və bununla da, kişiyə nəslinin davam etdirilməsini təmin edir. Kişi isə, əvəzində, ailəsini qorumaq və onu təmin etməkdə məsuliyyət daşıyır. Lakin hər iki cins öz təbii funksiyalarını yalnız həddi-bülüğa çatdıqları təqdirdə, yerinə yetirə bilərlər. Bu baxımdan, erkən evlilik, onların fitrətinə və insani hüquqlarına zidd olan bir haldır.***

Erkən evliliyin ortadan qaldırılması və qadın hüquqlarının təmin olunması məsələsində ən böyük inqilab VII əsrdə Hz. Muhamməd (s.ə.s) tərəfindən gerçəkləşdirilmişdir. Onun Vida xütbəsində səsləndirdiyi fikirlər XX əsrdə "İnsan hüquqları bəyannaməsi"ndə öz əksini tapmışdır:

"Cahiliyyət adətlərini ayağımın altına alıb tapdalayıram. Bütün qan davaları tamamilə ortadan qaldırılmışdır. Bunlar, yalan və uydurma şeylərdir.

Ey xalq! Sizin qadınlarınız üzərində bir sıra haqlarınız vardır. Onlar sizin haqlarınıza riayət etməlidirlər. Onların da sizin üzərinizdə haqları var. Onlarla yaxşı davranın. Yoldaşlarınızla şəfqətlə davranın. Siz onları, Allahın əhdi ilə aldınız. Onlar sizə Allahın əhdi ilə halal olmuşdur.

Ey nas! Bu gün necə müqəddəs bir gündürsə, bu aylarınız necə müqəddəs aylardırsa və bu vətən necə mübarək bir vətəndirsə, sizin qadınlarınız və mallarınız da Allahınıza qovuşacağınız zamana qədər eləcə müqəddəsdir. Hər birinizin qanı və malı digərinə haramdır. Qiyamət günündə Allahın hüzuruna çıxacaqsınız. O da, sizdən elədiklərinizi bir-bir soruşacaq və ona görə mükafat və cəza verəcəkdir.

Ey xalq! Bir qadının, ərinin icazəsi olmadan, onun malından bir şeyi başqasına verməsi məqbul deyildir."

İslam dininin əsas və yeganə mötəbər mənbəsi olan Qurani-Kərimdə nikah yaşı ilə bağlı konkret bir məlumat yoxdur. Çünki orada evlilik üçün konkret yaş deyil, həddi-bülüğ (ruşd) səviyyəsi əsas götürülür. Həddi-bülüğ, fərdlərin həm fiziki, həm də əqli-psixoloji səviyyələrinə görə müəyyən olunur. Fərdlərdə həddi-bülüğ səviyyəsi müxtəlif olduğu üçün, onun konkret bir yaş ilə ifadə edilməsi mümkün deyildir.

Qurani-Kərimdə həddi-bülüğ ilə əlaqədar ayələr vardı;

"Yetimləri yetkinlik yaşına (rüşd) çatanadək imtahana çəkin. Əgər onların həddi-bülüğa çatdıqlarını görsəniz, mallarını özlərinə qaytarın."

"Yetimin malına, xeyirxah məqsəd istisna olmaqla, həddi-bülüğa çatanadək yaxın düşməyin" (Ənam, 152).

Nisə surəsinin 6-cı ayəsinin Sabit ibni Rəfaə və onun əmisi ilə bağlı endiyi bildirilir. Sabitin atası Rəfaə dünyadan getmiş və Sabit kiçik yaşlarında yetim qalmışdı. Onun əmisi Peyğəmbərin (s.ə.s) yanına gələrək soruşdu: "Qardaşım oğlu mənim öhdəmdədir. Onun mal-dövlətindən nə qədər istifadə edə bilərəm? Mal-dövlətini nə vaxt ona qaytarmalıyam?" Bu zaman Nisə surəsinin 6-cı ayəsi nazil oldu.

Ayələrdən göründüyü kimi, yetimlər həddi-bülüğa (rüşd) çatdıqdan sonra, miras malları özlərinə qaytarılmalıdır.

Bəs həddi-bülüğ (rüşd) necə müəyyən olunur?

İmam Sadiqdən (ə) sözügedən ayədəki "rüşd" sözünün mənası barədə soruşanda demişdir: "Rüşd - mal-dövlətin qorunmasına dair qüdrət və bacarıqdır."

Rəsulullah (s.ə.s) buyurmuşdur: "Qələm üç nəfərin üzərindən götürülmüşdür: oyanana qədər yuxuya dalmış kimsə, həddi-bülüğa çatana qədər uşaq və ağlı bərpa olana qədər ruhi xəstə."

Rüşd, ayə və hədislərdən göründüyü kimi, ilk növbədə, əqli-psixoloji yetkinliklə bağlı anlayışdır. Ayədə bildirildiyi kimi, "imtahana çəkilmək" ("İbtəlu") və onun nəticəsinə görə mirasa sahib çıxmaq, insanın əqli-psixoloji qabiliyyətini fiziki keyfiyyətlərdən önə çəkir. Çünki fiziki yetkinlik, hər zaman insanın əqli-psixoloji yetkinliyinə (rüşd) dəlalət etmir. Deməli, yetimlərin qəyyumları, onların mal-dövlətin qorunmasına dair qüdrət və bacarıqlarını, yəni əqli-psixoloji yetkinliklərini imtahan etməli və sonra mal-dövlətini özlərinə qaytarmaq barədə qərar verməlidirlər. Onlar, bu məsələdə məsuliyyət daşıyırlar. Eyni zamanda, qəyyumların verdikləri qərar məhkəmə tərəfindən rəsmi sənəd ilə təsdiq olunurdu. Bu sənəd, həmin şəxsə mülkiyyət hüququ verməklə, onun vətəndaşlıq hüququnu təsdiq edirdi.

Bəs həddi-bülüğ (rüşd) necə imtahan olunurdu?

Şəxsin miras buraxılan mala sahib çıxması üçün, onun həmin malı (pul, qızıl, mülk) sərbəst şəkildə istifadə etmək, qazanc əldə etmək və onu artırmaq qabiliyyəti olmalıdır. O, bu malı istifadə edib artırdığı zaman, etdiyi hərəkətlərə görə, dini və hüquqi məsuliyyət daşıyır. Onun, işləyib vergi vermək, zəkat ödəmək və döyüşdə iştirak etmək kimi bir sıra hüquqi məsuliyyətləri vardır. Şəxsə mülkiyyət hüququnun verilməsi ilə bağlı bu məsuliyyəti anlamaq və ona görə davranmaq, əqli-psixoloji yetkinliyi zəruri edir.

Hz.Muhamməd (s.ə.s) də kiçik yaşlarında yetim qalmış və 17 yaşına qədər əmisi Əbu Talibin himayəsində qalmışdır. Çünki əvvəlki ticarət səfərlərində himayədarı olan əmisi Əbu Talibin himayəsində səfərə çıxırdısa (məsələn, 13 yaşında - 583-cü ildə onunla birgə Şam səfəri), 17 yaşından başlayaraq (587), himayədarı yanında olmadan, Yəmənə digər əmisi olan İbn Abbas ilə birlikdə müstəqil surətdə ticarət səfərlərinə gedirdi. Ancaq bu səfərlər əvvəlkindən onunla fərqlənirdi ki, artıq Hz.Muhamməd (s.ə.s) 17 yaşından sərbəst bir tacir kimi fəaliyyət göstərirdi.

Peyğəmbər (s.ə.s) gənc yaşlarından cəmiyyətdə zəki və müdrik bir insan kimi tanınmışdır. Lakin biz onun 17 yaşdan əvvəl sərbəst surətdə ticarət etdiyini müşahidə etmirik. Çünki o, 17 yaşınadək əmisi Əbu Talibin himayəsində ticarət işlərinin incəliklərini, hesab işlərini dərindən öyrənmiş (irşad) və sonra həddi-bülüğa (rüşd) çataraq, sərbəst şəkildə bu işlə məşğul ola bilən bir şəxsə çevrilmişdir (rəşid). O, artıq 20 yaşında Məkkədə yerli və xaricilərin mal və can təhlükəsizliyinə sahib çıxan "Hilful-fudul" ("Fadillərin andı") cəmiyyətinin qurucuları arasında yer almışdır. Əgər Hz.Muhamməd (s.ə.s) 17 yaşında həddi-bülüğa çatmışsa, ilk müsəlman fəqihlərinin bu yaş həddini daha erkən yaş dövrlərinə aid etmələri mümkün deyildir. Bunu Əbu Hənifənin misalında gördük.

İslam dinində qadınların işləyib qazanc əldə etmək və xüsusi mülkiyyət sahibi olmaq hüquqları varmı?

1. Qurani-Kərimdə qadınların xüsusi mülkiyyətə və mirasa sahib olmaq, müstəqil şəkildə işləyib qazanc əldə etmək hüququnu birbaşa təsdiq edən ayələr vardır:

"İbni Macə belə rəvayət edir ki, Hz.Peyğəmbərin vaxtında Uhud döyüşündə şəhid olan Sad bin Rəbinin zövcəsi iki qızı ilə birlikdə Rəsulullahın hüzuruna gəlmiş və "Ya Rəsulallah, bunlar Sadın qızlarıdır. Ataları Uhudda şəhid oldu. İndi isə əmiləri mallarının mənimsəmiş, bunlara isə heç bir şey saxlamamışdır. Halbuki bu qızlar malsız evlənə bilməzlər" deyə şikayət etmişdir. Peyğəmbər (s.ə.s) "Allah bu məsələdə hökmünü bildirəcəkdir" buyurdu. Bundan sonra miras ayəsi (Nisə, 11-12) nazil oldu. Bu ayələr enəndə insanlar təəccüblənmişdilər. Çünki bu ayələrdə qadınlar və hətta kiçik uşaqlar belə, varis hesab olunurdu. Bu, islamın miras məsələsində batil fikirləri necə alt-üst etdiyini və necə bir inqilab yaratdığını açıq şəkildə göstərir."

"Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır" (Nisə, 32).

Xüsusilə, böyük sahibkarlıq fəaliyyəti ilə tanınan Hz. Xədicə, Hz.Peyğəmbərin (s.ə.s) xanımı kimi, digər müsəlman qadınlara gözəl örnək idi. Rəsulullah (s.ə.s) "İslam Əlinin qılıncı və Xədicənin malı üzərində ucaldı" buyurmuşdur.

Peyğəmbər (s.ə.s) Hz.Xədicə barədə demişdir: "Allaha and olsun ki, Mənə ondan yaxşısı qismət olmamışdır. İnsanlar inkar edəndə, o, Mənə inandı, onlar Mənim yalan dediyimi söyləyəndə, o, Məni təsdiq etdi. Onlar əlimdən hər şeyi alanda, o, bütün var-dövlətini Mənim üçün xərclədi. Digər həyat yoldaşlarım Məni övlad üzünə həsrət qoyanda, Allah ondan Mənə övlad bəxş etdi" (Tezkiretül-Havas, s. 303).

Həmin dövrdə minlərlə qadın səhabə müxtəlif sahələrdə müsəlman cəmiyyətinin quruculuğunda fəal iştirak etmiş və iqtisadi müstəqillik əldə etmişlər. Əbu Səid əl-Hudri bildirir ki, "AllahRəsulu (s.ə.s) insanları sədəqə verməyə təşviq edən hədisi rəvayət etdikdən sonra, "ən çox sədəqə verənlər qadınlar idi." (Müslim, "Salatül-əqideyn", 9).

2. Hz.Muhamməd (s.ə.s) müsəlman cəmiyyətində qadınların işləmək, qazanc əldə etmək hüquqlarını və eyni zamanda, qadınların sosiallaşması üçün elm-təhsil almalarını təmin etmişdir. Çünki işləmək və cəmiyyətə fayda gətirmək, ilk öncə, xalqın elm-təhsil səviyyəsinin artırılmasından və cəmiyyətdə qadın əməyinə tələbatın formalaşmasından asılıdır.

Hz.Muhamməd (s.ə.s) buyurur ki, "Elm öyrənmək oğlan və qız - hər müsəlman üçün vacibdir." (İbn Mace, mukaddime 17).

"Mədinəli qadınlar Rəsulullahın (s.ə.s) hüzuruna gəlmiş və "kişlər hər vaxt yanınıza gəlib elm öyrənir, bilmədiklərinə sahib olurlar. Biz isə, onlardan fürsət tapmırıq. Bizə xüsusi bir gün ayırın ki, gəlib sizi dinləyək və bilmədiklərimizi öyrənək" demişlər. Rəsulullah da onlara bir gün təyin etmişdir. O gün qadınlara xütbə oxyar və əmr verərdi. Xanım Aişə belə deyir: "Ənsar qadınları nə yaxşı qadınlardır. Çəkinmələri dinlərini öyrənmələrinə mane olmamışdır."

Qadın alim səhabələrdən olan Kabisa b. əl-Muharik belə xatırlayır: "Peyğəmbərimizin yanına getdim. Mənə, "Niyə gəldin?" deyə soruşdu. "Ya Rəsulallah! Yaşım bir xeyli artıb, sümüklərim artıq incəlib. Sənə Cənabi-Haqqın yararlı qıldığı bir sıra şeyləri mənə öyrətməyin üçün gəldim" dedim. Peyğəmbər (s.ə.s) "Sən hansı daşın, hansı ağacın və hansı torpaq parçasının yanından keçmisənsə, sənə Allahdan bağışlanmanı diləmişdir" buyurdu".

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 4 iyul



# YAP Ağdam rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilib




***Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatı gənclər birliyinin V hesabat-seçki konfransı keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, Ümummilli Liderin əziz xatirəsini ehtiramla yad ediblər. Konfrans Dövlət himninin səsləndirilməsi ilə başlayıb.***

Konfransı giriş sözü ilə açan YAP Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev gənclərin partiyadakı rolundan və onların fəallıqlarından danışıb.

Konfransda YAP Ağdam rayon təşkilatı gənclər birliyinin sədri Azər Əliyev hesabat dövrü ərzində görülən işlər barədə məruzə ilə çıxış edib. A.Əliyev qeyd edib ki, YAP Ağdam rayon təşkilatının gənclər birliyi hesabat dövrü ərzində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb.

Rayon təşkilatının fəalları Əli Məmmədov, Elnur Əhmədov, Mətanət Misirxanova və Baxşeyiş Hətəmov hesabat məruzəsi ətrafında çıxış edərək, Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət-gənclər siyasətinin əhəmiyyətindən bəhs ediblər. Qeyd olunub ki, dövlət başçısının rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası gəncliyin inkişafına xüsusi diqqət göstərir.

Konfransda çıxış edən Ağdam rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov qeyd edib ki, güclü və demokratik siyasi qüvvə olan, ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanı inamlı inkişafa və uğurlu gələcəyə doğru aparır. Çıxış edənlər Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan danışaraq, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildiriblər.

Çıxışlardan sonra təşkilati məsələlərə baxılıb. Şirxan Baxşalıyev YAP Ağdam rayon təşkilatı gənclər birliyinin sədri, Vasif Həsənov və Rauf Bəxtiyarlı isə sədr müavinləri seçiliblər. Həmçinin, təşkilatın gənclər birliyinə 9 nəfərdən ibarət idarə heyəti, 17 nəfərdən ibarət şura üzvü seçilib və YAP Gənclər Birliyinin V konfransına nümayəndələr müəyyənləşdirilib.

***ZÜMRÜD BAYRAMOVA***

# “ Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur”

*YAP Masallı rayon təşkilatı bu mövzuda Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illik yubileyi münasibəti ilə tədbir keçirib*

***Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının qərargahında Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illik yubileyi münasibəti ilə “Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur” mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev 1969-cu ilin 14 iyulunun Azərbaycan tarixinə çox əlamətdar bir gün kimi daxil olduğunu bildirib: “1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsi ölkənin inkişafında, onun uzun müddət yığılıb qalmış problemlərinin həllində və ən əsası, dövlətimizin dünya səviyyəsinə çıxmasında başlanğıc nöqtəsi oldu.***



Dahi Lider Heydər Əliyevin Azərbaycanın problemlərini dərindən bilməsi, yüksək vətənpərvərlik və təbiətdən gələn təşkilatçılıq qabiliyyəti cəmiyyətin resurslarını problemlərin həllinə yönəltməyə imkan verdi. Bu dövrdə Azərbaycan iqtisadiyyatında keyfiyyət dəyişiklikləri baş verdi. Mövcud müəssisələrin yenidən qurulması, yenilərinin açılması, kənd təsərrüfatına dövlət qayğısının artırılması, infrastrukturların yenilənməsi, qısa müddət ərzində, böyük nailiyyətlərin əldə olunmasına yol açdı”.

S.Əliyev, onu da vurğulayıb ki, 1971-ci ildə Azərbaycan inkişafın tempinə və sürətinə görə, keçmiş sovetlər birliyində ən qabaqcıl respublikaya çevrildi: “1969-cu ilin iyulunda Ulu Öndər Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə, respublikanın bütün həyatında olduğu kimi, hərbi-təşkilati və kütləvi-müdafiə işləri sahəsində də milliləşmənin başlanğıcı qoyuldu. Bu sahəyə diqqət artırıldı, hərbi-təşkilati və kütləvi-müdafiə işinə xalqın həyatında malik ola biləcəyi dəyər verildi, onun miqyası genişləndirildi. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə 1-ci dəfə hakimiyyətə gəlişindən sonra müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət aldı. Ümummilli Liderin cəsarətli addımları sayəsində Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. Təsadüfi deyildir ki, C.Naxçıvanski adına Hərbi Məktəb Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi”.



Tədbirdə Masallı rayon ərazi ilk partiya təşkilatının sədri Azər Baxşıyev, rayon təşkilatı qadınlar şurasının sədri Gülşən Xəlilova, GEM ərazi ilk partiya təşkilatının sədri Rəhman Muxtarov və başqaları çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında əvəzsiz xidmətlərindən danışaraq, Ulu Öndərin Azərbaycanın dövlət müstəqilliyinin qorunub-saxlanılması, respublikanın sosial-iqtisadi inkişafı sahəsindəki misilsiz fəaliyyətindən bəhs ediblər.

***R.KAMALQIZI***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**